PAŞA YAQUB

# BAŞ DAŞAĞIL ENSİKLOPEDİYASI

Bakı-2012

**Redaktoru:** **Nazim Tapdıqoğlu (*Vəlişov*)**
*tədqiqatçı-tarixçi, Bakı Slavyan Universitetinin elmi işçisi, "Qızıl Qələm" mükafatı laureatı*

**İdeya müəllifi və məsləhətçi:** **Mülküm Mahmudov**
*Lənkəran rayon prokurorunun müavini, ədliyyə müşaviri*

Paşa Yaqub "**Baş Daşağıl ensiklopediyası**",
"Zərdabi LTD" MMC, Bakı, 2012, 128 səh.

Oğuz rayonunun Baş Daşağıl kəndinin tarıxı, etnoqrafiyası, arxeologiyası, coğrafiyası ilə bağlı olan bu ensklopedik məlumat kitabında kənddə olan coğrafi adların mənşəyi, mənsubiyyəti haqqında qısa izahlı şərhlər, eləcə də Baş Daşağılın müqəddəs yerlərinin, tanınmış ziyalılarının, görkəmli şəxsiyyətlərinin, Qarabağ müharibəsində şəhid olanların, Böyük Vətən Müharibəsi veteranlarının adları da verilmişdir.

Baş Daşağıl kəndi haqqında ilk dəfədir ki, bu cür sistemli şəkildə tədqiqat aparılaraq, çap olunur. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab gələcəkdə tədqiqatçılar üçün zəngin məlumat mənbəyi olacaqdır.

Y $\frac{05005000000}{0103\text{-}2012}$ qrifli nəşr

© Paşa Yaqub, 2012

*Dünyasını dəyişmiş*
*bütün Daşağıl*
*sakinlərinin*
*əziz xatirəsinə*
*ithaf olunur*



## ÖN SÖZ

*Dünya bir gəmidir, üzmək istəsən,*
*Xeyirxah işlərdən gəmi düzəlt sən.*
*Nizami Gəncəvi*

*Çoxdandır ki, doğulub boya-başa çatdığım Baş Daşağıl kəndi, onun tarixi, toponomiyası, burada yaşamış ərlər, ərənlər haqqında tədqiqat aparıb, kitab yazmaq istəyirdim. Bu məqsədlə bir neçə arxivə müraciət edib, lazımi materialların da bir hissəsini toplamışdım. Lakin bu materialların üzərində işləmək, onu kitab halına salıb, tamamlamaq böyük zaman və vaxt tələb edirdi. Açığı tutduğum vəzifə ilə əlaqədar, belə bir vaxt indiyə qədər məndə olmayıb.*

*Və günlərin birində mən yazıçı Paşa Yaqubla tanış oldum. Onun belə işlərdə peşəkar olduğunu görüb, kəndimiz haqqında kitab yazmağı ondan xaiş etdim və əlimdəki sənədləri də ona təqdim etdim. Aradan bir neçə ay keçəndən sonra biz yenidən görüşdük və o, yazdığı kitabı mənə verdi. Açığı mən gözlədiyimdən də sanballı bir əsər alınmışdı.*

*... Kitabı oxuduqca oxucuya məlum olur ki, Dədə Qorqud boylarının cövlan etdiyi, Oğuz igidlərinin at oynatdığı yerlərdir bu yerlər. O igidlərin dilindən qopan şirin Oğuz türkcəsini eşitmək istəyirsənsə, Daşağıla üz tut. Bu yerin istiqanlı adamlarının min illərlə qoruyub saxladığı qədim*

*türk məişəti ilə canlı təmasa gir.*

***Bu yurdun hər guşəsi bir tarix xəzinəsidir. Müəllif o xəzinənin inciləirini bugünkü və gələcək nəsillərin ixtiyarına verir. Kitabı oxuduqca həçinin məlum olur ki, bu kiçik türk elində yaşamış soydaşlarımız nə qədər mürəkkəb şəraitlə, nə qədər çıxılmaz vəziyyətlə üzləşməli olmuş, dara düşmüş, köməksiz qalmış, neçə-neçə qazanxanlarımız Daşüzdə qaradonlu kafirlərə qarşı döyüşlərdə şəhid düşən Oğuz igidlərinin dadına çata bilməmiş, qəbiristanlıq dalınca qəbiristanlıqlar salınmışdır. Tarixin sərt sınaqları, torpağa bağlılıq, elə sədaqət, türk qılıncının zəfər ənənələri qara donlu kafirlərə qarşı nifrət və intiqam hissi igidlər dalınca igidlər yetirmişdir. Bir sözlə, Dədə Qorqud boylarının məskənidir bu yer. Armux yaylağı – yəni, ər, ərən muğların yaylağı, Qazanuçan yaylağı, Ərk yaylağı, Gədik yaylağı... hər biri bir tarixi salnamədir. Bu salnaməni yaşatmaq və gələcək nəsillərə ötürmək bizim vətəndaşlıq borcumuzdur. Məhz bu borcu dərk edərək, belə bir kitabın ərsəyə gəlməsinə çalışdıq. Məqsədimizə nə dərəcədə nail olduq, bunu oxucular bilər. Arzu edərdik ki, Paşa Yaqubun qələmə aldığı “Baş Daşağıl ensiklopediyası” kitabı gələcək nəsillərin stolüstü kitabı olsun və onlar keçmişlərini dərindən öyrənərək, gələcəyə inamla addımlasınlar.***

**Mülküm Mahmudov**
*Ədliyyə müşaviri*

# REDAKTORDAN

P***aşa Yaqub*** imzası oxuculara yaxşı tanışdır. O, 25 kitabın və onlarla məqalənin müəllifidir. "*Bəşəri dəyərlərin təbliği fondu*"nun prezidenti olan Paşa Yaqub elmi-dini, tarixi araşdırmalarla bərabər, bir sıra yaşayış məntəqələrinin adlarının mənşəyi, toponimiyası, arxeologiyası, etnoqrafiyası, həmin məntəqələrdən çıxmış tanınmış ziyalılar, görkəmli şəxsiyyətlər, eləcə də Böyük Vətən, Əfqanıstan, Qarabağ müharibələrinin iştirakçıları, şəhidləri haqqında dəyərli kitablar yazmışdır.

Müəllifin "***Baş Daşağıl ensiklopediyası***" adlandırdığı bu kitab kəndin tarixi, coğrafiyası, təbiəti, təsərrüfat həyatı, tanınmış adamları, şəhidləri və s. barədə təəssüratlarının məcmusudur. Kitabda Paşa Yaqubun Baş Daşağıla olan sonsuz məhəbbəti, bu kəndin ağsaqqallarına, dəyərli insanlarına hörmət və rəğbəti demək olar ki, bütün çalarları ilə öz əksini tapmışdır. Bu mənada kəndin zəngin keçmişi, dəyərli şəxsiyyətləri haqqında qısa ensiklopedik məlumatlar verən "*Baş Daşağıl ensiklopediyası*" kitabı həm bu günümüzün, həm də gələcəyin oxucusu üçün qiymətli bir töhfədir.

Həyat təcrübəsi göstərir ki, xeyirxah niyyətli insanlar həmişə insani dəyərlərə layiq işlər görməyə çalışırlar. Bu, doğrudan da belədir. Əslində yaxşı adamların gördükləri yaxşı işlər yaxşı da qiymətə layiqdir. Heç kimdən təmənna güdməyən Paşa Yaqub insanlara xidmət etməyi hər şeydən üstün tutur və haqlı olaraq sübut etməyə çalışır ki, əgər ürəkdə həvəs və sevgi varsa, Azərbaycanın istənilən yaşayış

məntəqəsinin tarixini araşdırıb ortaya maraqlı bir əsər qoymaq mümkündür. İlk baxışda elə görünə bilər ki, burada qeyri-adi bir şey yoxdur. Amma hər şeyə diqqət ilə yanaşsaq, mədəni irsimizi diqqətlə araşdırsaq, bir sıra məsələlərlə yanaşı, hər hansı bir kəndin fəxr edilməli şərəfli keçmişi olduğunun şahidi olarıq.

Hər bir millətin, hər bir ailənin, hər bir fərdin tarixi olduğu kimi, hər bir yaşayış məntəqəsinin də tarixi vardır. Öz tarixini, özünün mənsub olduğu millətin, nəslin keçmişini bilməyən bir kəs öz gələcəyini də düzgün müəyyənləşdirə bilməz. Hər hansı bir el-oba üçün dəyərli, zəruri tarixçəni yazmaq, həqiqətin işığında bütün bu yuxarıda qeyd etdiklərim məsələlərə güzgü tutmaq əlbəttə ki, insandan böyük bacarıq, həvəs, istedad, səbr, təmkin, bilik, yaddaş tələb edir. Bu işi görərkən əldə hazır yazılı qaynaq olmadığı üçün gərəkdir ki, yazdığın yaşayış məntəqəsi haqqında onun nüfuzlu sakinlərindən, ağsaqqal-ağbirçəklərindən, ziyalılarından müəyyən informasiyalar toplayasan, onların yaddaşlarından süzülüb gələn maraqlı fikirləri qələmə alasan. Bu mənada Paşa Yaqubun gərgin zəhmət və axtarışlarının, yuxusuz gecələrinin məhsulu olan bu kitab hər cür alqışa layiqdir.

***Baş Daşağıl kəndi*** Oğuz rayonunda, Baş Daşağıl inzibati ərazi vahidində, Baş Qafqaz silsiləsinin ətəyində, ***Daşağıl*** çayının (*el arasında bu çayın adına **Uluçay** da deyirlər*) sahilində, dəniz səviyyəsindən təxminən 1000 metr yüksəklikdə yerləşir. ***Baş Daşağıl*** oykonimi "*Daşağıl yaşayış məntəqəsinin yuxarı (baş) hissəsi*" anlamındadır. Mənbələrdən məlum olur ki, qədimdən ***Daşağıl*** adlandırılan

ərazidə iki mağara və qayaaltı ***ağıl*** (*mal-qara, qoyun-quzu saxlanan yataq*) mövcud olmuşdur. Tarixi sənədlərdən aydın olur ki, XIX əsrin ortalarında ***Aşağı Daşağıl kəndi*** yarandıqdan sonra bir qədər ondan yuxarıda yerləşən eyniadlı kənd ***Baş Daşağıl*** adlandırılmışdır. Toponimin tərkibindəki ***ağıl*** komponentini "***aul***" mənası ilə də əlaqələndirənlər vardır. Geniş otlaq sahələri, əkin yerləri (***Çarx Şünbə, Əhmədağzı, Arpadərə, Cəyrik, Tikanlı, Qaladərəsi, Zirili dərə*** *və s.*), yaylaqları (***Bədəl, Danaçı, Tülkülər, Hacı Usub, Qazan uçan, Göy Bayır, Armux***), çayları (***Uluçay, Dəyirmançay***), bulaqları (***Soltan bulağı, Düzən bulaq, Kükürdlü su bulağı, Hacı Ata bulağı*** *və s.*), zəngin flora və faunası ilə şöhrət tapan ***Baş Daşağıl kəndi*** qədim tarixi keçmişə malikdir.

Müəllif bu kitabı yazarkən bir sıra sənədlərlə tanış olmaqla bərabər, çoxlu kənd sakinləri (*ziyalılar, ağsaqqallar və ağbirçəklər*) ilə görüşərək, onlarla söhbətdə əldə etdiyi məlumatları, informasiyaları obrazlı şəkildə və oxunaqlı bir dildə qələmə almışdır. O, toponimləri toplayarkən müxtəlif insanlarla, ağsaqqallarla görüşmüş və onlarla söhbətlər aparmışdır. Kəndin ətrafında olan yer-yurd adları haqqında kitabda gedən mətnlər kitabın daha oxunaqlı olmasına səbəb olmuşdur. Paşa Yaqub oxuculara kənd haqqında məlumatları bütün təfərrüatı ilə, sadə və aydın dildə çatdırılmasını təmin etmişdir.

Kitabda kəndin 1930-cu illər repressiya qurbanlarına, 1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak edən sakinlərinə və eləcə də, şairlərinin bəzi şeirlərinə də yer ayrılmışdır. Tam əminliklə qeyd edə bilərəm ki, gərgin

əmək, böyük zəhmət nəticəsində araya-ərsəyə gətirilmiş "*Baş Daşağıl ensiklopediyası*" bu kənddən olan hər bir adamın stolüstü kitabı olacaq, onlar bu kitabı sevə-sevə oxuyacaq və oxuduqca da ululardan onlara miras qalmış bu kəndi, bu yurdu daha çox sevəcəklər.

Hər bir yaşayış məntəqəsi haqqında ayrıca kitab yazmaq, sözsüz ki, çətin və məsuliyyətlidir. "*Baş Daşağıl ensiklopediyası*" kitabını yazmaqla Paşa Yaqub bu çətinliyin, məsuliyyətin öhdəsindən layiqincə gəlmişdir. Böyük zəhmət bahasına başa gələn bu kitab ümidvaram ki, ***Baş Daşağıl*** kəndinin sakinləri və eləcə də geniş oxucu kütləsi tərəfindən böyük maraqla qarşılanacaqdır.

**Nazim Tapdıqoğlu (*Vəlişov*)**
*tədqiqatçı-tarixçi, Bakı Slavyan Universitetinin elmi işçisi, "Qızıl Qələm" mükafatı laureatı*

## BAŞ DAŞAĞIL KƏNDİ

***Görmək istərsən əgər həqiqi əfsanə, nağıl,***
***Bir nağıldır ki, durub göz qabağında Daşağıl!***

Azərbaycanın qədim və zəngin tarixə malik kəndlərindən biri də Baş Daşağıl kəndidir. Oğuz rayonunda yerləşən bu kənd Baş Qafqaz silsiləsinin ətəyində, min metrdən artıq yüksəklikdə, Azərbaycandan Dağıstana gedən karvan-ticarət yolunun üzərində yerləşir. Şərqdən *Qazdağ silsiləsi*, qərbdən *Güney silsiləsi*, şimaldan isə, hündürlüyü 2906 metr olan *Qidim aşırımı* ilə əhatə olunub Kəndin ortasından *Daşağıl çayı* keçir ki, el arasında ona *Uluçay* deyilir. Burada iki mağara və qayaaltı ağıl (mal-qara və ya qoyun yatağı) mövcuddur ki, kəndin adının da bu səbəbdən yarandığı ehtimal edilir. *"Kitabi-Dədə Qorqud"*da oğuzların iki böyük qolundan biri *Daş Oğuz* (Dış Oğuz) tayfalarıdır. Burada da *daş* (dış) bayır, çöl mənalarını ifadə edir. *Ağıl* sözü isə "mal-qara, qoyun saxlanan üstüaçıq yer" mənasını bildirir. XIX əsrin ortalarında Aşağı Daşağıl kəndi (Şəki rayonunda) yarandıqdan sonra, yuxarıda yerləşən qədim Daşağıl kəndi **Baş Daşağıl** adını almışdır.

Yeri gəlmişkən qeyd edim ki, 1501-ci ildə Şah İsmayıl Xətainin yürüşü nəticəsində Baş Daşağı kəndi səfəvilər dövlətinin ərazisinə daxil edildi.

1736-cı ildə səfəvilər dövləti süqut etdikdən sonra, 1743-ci ildə Hacı Çələbi xan özünü Şəki xanı elan etdi və müstəqil xanlıq yaratdı. Xanlığın tərkibinə səkkiz mahal- Şəki, Xaçmaz, Qəbələ, Ərəş, Padar, Ağdaş, Alpout, Göynük, (o

cümlədən Baş Daşağil)  daxil idi.

1805-ci ilin 21 mayında Rusiya ilə kürəkçay  müqaviləsi bağlandı və bununla da Şəki xanlığı Rusiyanın tabeliyinə keçdi 1819-cu ildə Rusiya tərəfindən Şəki xanlığı ləğv edildi və buradakı əyalətlər (o cümlədən Baş Daşağıl) komendatlar tərəfindən idarə olundu.

1824-cü il siyahıyaalmasına görə Daşağılda 227 ailə mövcud olmuşdur ki, onlardan 45 ailə 1794-cü ildə Şəki xanı Məhəmmədhəsən xanın zamanında  Dağıstandan hərbi məqsədlə bura köçürülmüş ləzgi ailələridir. Onlar atlı dəstələri təşkil edərək, Məhəmmədhəsən xanla birlikdə hərbi yürüşlərdə iştirak edirdilər və 1824-cü il siyahıyaalmasına qədər dövlət xəzinəsinə vergi ödəmirdilər.

Qeyd edim ki, həmin siyahıyaalmaya görə 521 kişi və 481 qadın olmaqla, Daşağılda 1002 nəfər əhali olmuşdur. Əhali əsasən heyvandarlıq, taxılçılıq, ipəkçilik və çəltik əkməklə məşğul olmuşlar. Kəndin yüzbaşısı Alxas Yüzbaşı Hacı Qurbanəli oğlu olmuşdur. Kənd icma tərəfindən idarə edilmişdir. Həmin siyahıda adları olan bir necə sakinin adlarını qeyd etmək yerinə düşərdi: Manaf Mustafa oğlu,Yəhya Rza oğlu, Abdulla Dadaş oğlu, Aşur Baba oğlu və s.

1842-ci il syahıyaalmasına görə Daşağılda 142 tüstü olmaqla, 656 nəfər əhali yaşamışdır.

1863-cü il syahıyaalmasına görə isə, kənddə 162 tüstü, 718 nəfər əhali olmuşdur.

Kənddə əhalinin belə azalmasına səbəb burada baş verən vəba xəstəliyi və yaz aylarında Uluçayın tez-tez daşması səbəbindən əhalinin bir hissəsinin buradan köçməsi

olmuşdur. Yeri gəlmişkən qeyd edim ki, Baş Daşağıl kəndindən aşağıda – Uluçayın sahilində Dəhnə və Qazmalar kəndi olmuş, bu kəndlərin əhalisi də daşqınlar səbəbindən buranı tamamilə tərk edərək, Şəkinin Dəhnə və Aşağı Daşağıl kəndlərində məskunlaşmışlar. Onların qəbiristanlıqları bugünədək köhnə yerində qalmaqdadır.

1921-ci ilin kənd təsərrüfatı siyahıyaalmasına görə Baş Daşağıl kəndində 278 təsərrüfat olmaqla, 1222 sakin (679 kişi, 543 qadın) qeydə alınmışdır. Həmin vaxt kənddə 25 savadlı adam olmuşdur. Kənddə 3565 qoyun, 109 araba, 125 kotan, 99 ha əkilmiş torpaq sahəsi olmuşdur. Kənddə iki məktəb şöbəsi olmaqla, 25 nəfər oğlan tələbəsi təhsil almışdır.

Hazırda Daşağılın 2000 hektar ərazisi, 1269 nəfər (01 yanvar 2012-ci il tarixə olan məlumata görə) əhalisi vardır.

Kənddə ulubəylər, abdullar, hacınovruzlar, hacıqasımlar, hacıqəriblər, nağdallar, sümğəllər, dulusçular, çemodanlar, yataplar, məislər, hacımahmudlar, suyuxlar, hacışirinlər, teştimlər, salahlar, başmaqlar, zərgərlər, meçanlar, gegetlər, əmiroğlular, sarvanlar, fərzalılar, dərzilər, həmzəlilər, əlamətlər, zamanlar, muğeylər, ağamalıoğulları, dəlləklər, midillər, hacıəsədlər, qaraaydınlar və seyidoğullari adlı nəsil və tirələr məskunlaşmışlar.

Dord tərəfdən dağlarla əhatə olunmuş bu kənd çox füsünkar gözəlliyə malikdir. Yaşıl meşələri, sərin və müalicəvi bulaqları, mərkəzindən axan Uluçay, Dəyirmançay Baş Daşağıla xüsusi gözəllik verir. Bu gözəlliyi şair Allahverdi Gülevşəli belə təsvir edir:


Dağıstan res.
Axtır.
Oraban
Baş Daşağıl k.
Oğuz
Xalxal
Muxas

*Ulu çay, nəğməli çay, sanki abu-zəmzəmdir,*
*Daşağıl dağlar içində elə bil ki, gəmidir.*
*Uca dağlar qabarıb dalğa kimi sanki gəlir,*
*Təbiət çəkdiyini təsvir edəmməz bir ağıl,*
*Bir nağıldır ki, durub göz qabağında Daşağıl!*

Kəndin çox məhsuldar və bərəkətli torpağı var. Burada taxılçılıq, meyvəçilik, heyvandarlıq xüsüsilə inkişaf etmişdir. Burada tərəvəz-bostan bitkiləri, dənli bitkilər, texniki bitkilər və s. əkilir.

Kənddə orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi, dəyirman, istirahət mərkəzi, rabitə şöbəsi, məscid və digər ictimai iaşə obyektləri fəaliyyət göstərir.

Bu kitabda qədim tarixə malik Baş Daşağıl kəndinin məhəllələrindən, nəsillərindən, toponimlərindən, tarixi şəxsiyyətlərindən bəhs edəcəyik. Kəndin qocaman sakinləri,



tanınmış ziyalıları ilə söhbətlərimdə əldə etdiyim müxtəlif səpkili informasiyalar, həmçinin arxivlərdən götürdüyüm məlumatlar əsasında belə bir ensiklopedik məlumat kitabı yaranmışdır.

Yuxarıda qeyd etdim ki, Baş Daşağıl kəndi coğrafi cəhətdən min metrdən artıq yüksəklikdə yerləşir. Maraqlıdır ki, bu yüksəklik kəndin elmi-mədəni və mənəvi səviyyəsində də özünü biruzə verir. Belə ki, bu kənd ölkəmizə onlarla tanınmış ziyalı-alim, mühəndis, həkim, siyasətci, hüquqşünas, neftçi, jurnalist, mədəniyyət işçisi, hərbiçi, təyyarəçi, idmançı və s. bəxş etmişdir. Bu torpaq indiyədək elim, mədəniyyət və incəsənətin müxtəlif sahələrində onlarla tanınmış mütəxəssislər yetirmişdir. Bu kitabda Baş Daşağılın bəzi taninmış şəxsiyyətləri, ziyalıları haqqında qısa məlumatlar da vardır.

Əziz oxucu! Bildirmək istəyirəm ki, bu kitabı xoş məramla, böyük həvəslə qələmə aldım. Ola bilsin ki, kitabda müəyyən fikirlər, faktlar səthi tədqiq olunmuş, bəzi tanınmış şəxsiyyətlərin adları kənarda qalmışdır. Yəqin ki, bu və ya digər toponimin, faktın izahında müəyyən mübahisəli, nöqsanlı fikirlər də var. Odur ki, bu mövzuda sizin dəyərli fikirlərinizi və mülahizələrinizi dinləmək istərdim. Əvvəlcədən sizə öz təşəkkürümü bildirirəm.

Hörmətlə: müəllif- **Paşa Yaqub**

# BAŞ DAŞAĞIL KƏNDİNİN TOPONİMLƏRİ

Toponomika- coğrafi adlari tədqiq edən bir elimdir. **Topos** yunan sözü olub, "relyef, yer, ərazi, sahə", **onoma** isə "ad" mənasını bildirir.



Coğrafi adların hər biri yerin yaddaşıdır. Müəyyən zaman müddətində verilmiş bu adlar əsrlər boyu lazımi səviyyədə izah və tədqiq olunmalıdır ki, bu da toponomika elmi ilə mümkundür. Toponimləri dunən ilə bu gün, bu gün ilə sabah arasinda salınmış tarixi körpüyə bənzədirlər. Bunun üçün də onu qorumaq, öyrənmək və gələcək nəsillərə çatdırmaq lazımdır.

Baş Daşağıl kəndi qədim yaşayış məskəni olduğundan, burada bir çox toponimlər mövcuddur ki, onların yaranması və mənası barədə məlumat verməyi vacib bildim.

## UĞAN MAĞARASI

Baş Daşağıl kəndinin cənubunda, Uluçayın (Daşağılçayın) qərb tərəfindəki böyük qayaların altında yerləşən təbii mağara Uğan adıyla tanınır. Türk xalqlarının mifologiyasında dağın qayanın, mağaranın totem olduğu, onların müqəddəs tutulduğu məlumdur. Müqəddəs Quran-Kərimdə də "Mağara", " Qumsal təpələr" adında surələr mövcuddur və bir çox peyğəmbərlərin Allahla təması məhs bu cür yerlərdə qurduqları və yaxud sığınacaq kimi istifadə etdikləri müqəddəs kitabda xəbər verilir.

Oronim "UĞ" və "AN" sözlərinin birləşmələrindən



yaranmışdır ki, birinci ucalığa, uğura, müvəffəqiyyətə işarədir. “AN” isə cəmlik, çoxluq, bolluq şəkilçisidir; həmçinin vaxt, zaman bildirir.

Xarəzmi, Qütbi, Mahmud Kaşğari, İ. Berezin və digər alimlər UĞAN sözünü Allah, Sahib, Rəbb kimi mənalandırmışlar.

Ugan mağarası ilə bağlı əfsanələr folklorumuzda da yer almışdır. Belə ki, folklorşünas S. Paşayevin topladığı bir əfsanədə deyilir ki, Oğuz rayonunun Daşağıl kəndində dağın ətəyində Uğan adlı bir mağara var. Dağda tək yaşayan dişi çöl atı döl yaratmaq istəyəndə mağaranın yanındakı qara qayaya sürtünər, yeddi ildən sonra bala doğarmış.

## KORDƏRƏ

Dərənin adı Koradərə adının təhrif olunmuş variantıdır. Toponim türk dillərindəki *kora* (quzu saxlanan yer) və *dərə* sözlərindən düzəlib, “kora olan dərə” mənasındadır

Qeyd edim ki, Daşağılın Kordərə ərazisi yaşıl meşələri, mineral bulaqları, şirin sulu dağ çayları, növbənöv meyvələri, yaraşıqlı quşları və heyvanları ilə çox füsünkar və cəlbedicidir. Odurki, uzaq keçmişdən bugünədək insanlar bura istirahət etməyə, dincəlməyə gəlirlər.

## MALIX

Baş Daşağıl kəndinə məxsus olan bu yaşayış sahəsi rayon mərkəzindən 25 km cənub-qərbdə yerləşir.

Oykonimimin kökü *mal* sözündən yaranmışdır ki, bunun da mənası "qaramal, heyvan və yaxud var-dövlət, mülk " mənasını bildirir. *Ix* şəkilçisi isə, sözdüzəldici şəkilçidir (məsələn, daşlıq, qumluq, güllük və s.).

1824-cü il siyahıyaalmasına görə Malıxda 34 tüstü olmaqla, 125 nəfər Udin millətindən olan əhali yaşamışdır. Həmin udinlərdən bir neçəsinin adlarını göstərək: Vartan Xanverdi oğlu, Arakel Arunet oğlu, Kazar Muradxan oğlu və s.

Malıxda altı böyük və üç kiçik ipəkçilik zavodu olmuşdur. Sakinlər ipəkçilik, çəltikçilik, taxılçılıqla məşğul olmuşlar. Kənd Mirzəyusif bəy tərəfindən idarə olunurdu.

Qeyd edim ki, bu ərazini Daşağıl sakini xeyriyyəçi **Hacı Novruz** XIX əsrin sonlarında Nikolay hökumətinə böyük məbləğdə qözıl pul ödəyərək, satın almışdır. O, burada özünə məxsus olan əlli min baş qoyunu və qaramalı saxlayırmış. Sonralar sovet hakimiyyəti qurulanda Hacı Novruzun oğlu Nağdalı həmin var-dövləti və torpağı hökumətə təhvil verdi.

## YEL DAĞI

Baş Daşağılın qərbində yerləşən dağətəyi sahədir. 17 hektar ərazisi var. Kolxoz dövründə burada taxıl əkilib. İndi isə otlaq sahəsidir. Dağın ətəyində ziyarətgah var və bura tarixən yel xəstəliyindən əziyyət çəkənlər üz tutublar. Qeyd etməyi vacib sayıram ki, tibb elminin inkişaf etmədiyi vaxtlarda (XX əsrin ikinci yarısına qədər) insanlar səhhətlərində yaranan problemləri bu kimi yerlərdə Allaha

dua etməklə həll edərdilər. Yel xəstəliyi olanlar da bura üz tuturdular. Oronimin adı da buradan yaranmışdır. Xalq arasında olan inanca görə övliyalardan biri burada ibadət etmişdir.

## TİKANLI

Baş Daşağılın qərb hissəsində yerləşən dörd hektar sahə **tikanlı** adlanır. Sovet dönəmində burada taxıl əkilərdi. Hazırda otlaq kimi istifadə olunur. Ərazi tikanlıq olduğundan, oronimin adı da buradan yaranıb.

## CƏYRİK

Kəndin şərq tərəfində yerləşən 12 hektarlıq ərazi **cəyrik** adlanır. Oykonim "çay yatağı" mənasını verir. Vaxtikən bura əkin sahəsi olub, hazırda otlaqdır.

## KİRƏŞYANDIRAN

Daşağılçayın (Uluçayın) sağ sahilində, Armux dağının ətəyində yerləşən sahə **kirəşyandıran** adlanır. Vaxtilə burada kirəc sexi olmuşdur. Belə ki, yerdə böyük quyu qazılıb, içərisi (yan divarları) bişmiş kərpiclə hörülürmüş. Sonra çaydan xüsusi daşlar seçilib, bu quyuya toplanar və ocaqla bir neçə gün yandırılarmış. Beləliklə, alınan kirəc tikintidə sement əvəzinə istifadə olunarmış. Qeyd edim ki, hələ tarixən bölgənin kirəcə olan tələbatının çox hissəsini buradakı sex ödəyərmiş. Oronimin adı da bu



səbəbdən yaranıb.

Həmin yerin yaxınlığında Kürəxana adlanan yer də vardır ki, burada Daşağıl sakinləri qədimlərdə qırmızı keramit bişiriblər. Bu gün kənddəki evlərin bir çoxunun damındakı keramitlər bu sexdə bişirilib.

## ARPADƏRƏ

Baş Daşağılın qərbində yerləşən 15 hektar əkin sahəsi **arpadərə** adlanır. Oykonim *arpa* və *dərə* sözlərindən düzəlib. Türkdilli xalqların toponomiyasında öz zənginliyi iləseçilən *arpa* komponenti dənli bitkilərdən birinin adını bildirməklə bərabər *arma, arba, arpa* variantlarında işlənən qədim türkdilli tayfa adını da ifadə edir. Toponomiyada "arpa" sözü ilə bağlı minlərlə obyekt adı mövcuddur.

## ARMUX YAYLAĞI

Baş Daşağıl kəndinin qərbində, Kordərə adlanan ərazidə yerləşən yaylaq **Armux** adlanır. 55 hektar əkin sahəsi olan bu ərazi kolxoz dövründə dəmyə taxıl əkilib. Eyni adlı dağın zirvəsində yerləşdiyindən bura texnika qalxa bilmirdi. Odur ki, sahə xışla şumlanır, oraqla biçilirdi. 50-ci illərdən sonra bu yaylaqdan ancaq qoyun saxlamaq üçün istifadə edilir. Oykonim *ar* (ər, igid) və *muq* (muğ) sözlərinin birləşməsindən yaranmışdır. Muq sözü, Muğan sözünün kiçildilmiş formasıdır ki, qədim türk tayfasının adıdır. Azərbaycanda Muğan adı ilə bağlı 18 yaşayış məntəqəsi mövcuddur. Tədqiqatçılar bu toponimləri *muq* etnonimi ilə əlaqələndirirlər.

## ƏHMƏDAĞZI

Baş Daşağlın qərb tərəfində, Kordərədə yerləşən dərədir. Bir tərəfi Sarıgüney, digər tərəfi Kordərə adlanan dağlardır. Həmin dağlardakı bulaqların suyu bura axır.

## ÇARX SÜNBƏ

Baş Daşağlın qərb hissəsində, Kordərədə yerləşən əkin sahəsi **Çarx Sünbə** adlanır. Oykonim *çarx* və *sünbə* sözlərinin birləşməsindən yaranmışdır. *Çarx* su üzərində qurulmuş dəzgaha deyilir. Sünbə isə, döş, yamac mənasını bildirir. Ərazi dağın yamacında yerləşdiyindən, belə adlanmışdır.

## DÜZƏN BULAĞI

Kordərədə yerləşən bulaqlardan biri Düzən bulağı adlanır. Bulağın yeri nisbətən düzənlik olduğundan, hidronimin adı da buradan yaranmışdır. Daşağlın içməli suya olan tələbatının təxminən yarısını bu bulaq ödəyir.

## QALA DƏRƏSİ

Kəndin qərbində yerləşən və hər tərəfdən dağlarla əhatə olunan dərə **qaladərəsi** adı ilə tanınır. *Qala* termini toponomiyada istehkam, şəhər, kənd mənalarında işlənir. Bu terminə bir çox müsəlman ölkələrinin toponomiyasında  rast gəlinir. *Dərə* isə su axan çökəklik mənasını bildirir. Daşağıldakı dərənin ətrafı dağlarla əhatə olunduğundan qalaya bənzəyir, buna görə də *qaladərəsi* adlanır.

## QIZIL QAYA

Kəndin şimalında, Uluçayın sağ sahilində yerləşən böyük bir qaya Qızıl qaya adlanır. Qaya kəndi sel təhlükəsindən qoruduğundan və böyük həyti əhəmiyyətə malik olduğundan belə adlandırılmışdır.

## SOLTAN BULAĞI

Kor dərədə yerləşən bulaqlardan biri **Soltan bulağı** adlanır. Hidronim şəxs adı ilə bağlıdır. Baş Daşağıl kəndinin içməli suya olan tələbatının təxminən yarısı bu bulaqdan ödənir.

## GÖY BAYIR YAYLAĞI

Baş Daşağlın şimalında, Qafqaz sıra dağlarında yerləşən bu səfalı yaylaq **Göy Bayır** adlanır. Oronim *göy*/köy (kənd) və *bayır* (kənar) sözlərindən yaranmışdır. Daşağlın kənarında (qırağında) yerləşən bu yaylaq əsrlərdir ki, yay aylarında camaatın qoyunlarının otarılması üçün istifadə edilir.

## ƏRK YAYLAĞI

Baş Daşağılın şimali-qərbində, Güney Qafqaz silsiləsində yerləşən səfalı yaylaqdır. Oronim İran dillərindəki *ərk* sözündən düzəlmişdir ki, mənası qala deməkdir. Ərk dağının başında uzunluğu 5-6 metrə çatan çoxlu qədim oğuz qəbirləri və qədim tikililərin qalıqları da vardır. Bu da bu yerlərin qədim yaşayış məskəni olmasını göstərir.



## ZİRİLİ DƏRƏ

Baş Daşağılın şimal hissəsində yerləşir. Yerli əhalinin ziri adlandırdıqları və müxtəlif yeməklərin bişirilməsində istifadə etdikləri bitkinin burada çox bitməsi oronimin yaranmasına səbəb olub.

## HACI USUB YAYLAĞI

Baş Daşağılın şimalında, Qidim aşırımında, eyni adlı dağın zirvəsində yerləşir. 2900 metrə yaxın hündürlüyü var. Oronim şəxs adı ilə bağlıdır. Qədimdən kəndin sakinləri öz heyvanlarını saxlamaq üçün yay aylarında bu səfalı yaylağa üz tuturlar.

## QAZAN UÇAN YAYLAĞI

Kəndin şimal hissəsində, dağın zirvəsində yerləşən səfalı yaylaqdır. Oronim Hülakü xanı Qazan xanın adı ilə bağlıdır.

## QISIR DAĞ

Baş Daşağlın şimalında, 2906 metr hündürlukdə yerəşir.Tədqiqatçılara görə, xalqın əsrlər boyu qazandığı zəngin təcrübə göstərir ki, bu yerlərdəki bəzi otlaqlarda müntəzəm otarılan qoyunlar qısır qalır, bala vermirlər.Bu, həmin ərazidə bitən otların

keyfiyyəti ilə bağlıdır. Lakin otsuz, bitkisiz dağlara da

xalq arasında *qısır* deyilir. Cənubi Azərbaycanda Qısır dağı və qısırdağ kəndi, Ermənistanda Qısırdağı qeydə alınmışdır.

## BƏDƏL YAYLAĞI

Daşağılın şimalında, eyni adlı dağın zirvəsində yerləşir. Oronim şəxs adı ilə bağlıdır. Bu adda azərbaycanda bir çox qəsəbə və kəndlər qeydə alınmışdır. Məsəln, Oğuz rayonunda Bədəldərə qəsəbəsi, Bərdə və Ağdaş rayonlarında Bədəlli kəndi vardır. Qobustan rayonundakı Bədəlli kəndinin qə dim adı Şahbədəlli olubdur ki, burada yaşamış ərəbqədim tayfasının bir qolu olan *şahbədəlli* tirəsinin ailələri tərəfindən salınmış və onların adına adlanmışdır.

## TÜLKÜLƏR YAYLAĞI

Kəndin şimali-şərq hissəsində, eyni adlı dağın zirvəsində yerləşir. Oronim heyvan adı ilə bağlıdır. Qədim zamanlardan bəri insanlar bu yaylaqdan qoyun saxlamaq üçün istifadə edirlər.

## DANAÇI YAYLAĞI

Baş Daşağlın şimal hissəsində, Qidim aşırımının yaxşnlığında, eyni adlı dağın zirvəsində yerləşir. Oronim XII əsrin ortalarında səlcuq oğuzlarının tərkibində azərbaycana gəlmiş türk mənşəli *dana* (özbək, qaraqalpaq, qazax, qırğız və türkmənlərdə *tana*) tayfasının adından və

mənsubluq bildirən –*çı* şəkilçisindən ibarət olub, "dana tayfasına mənsub olan yaylaq" deməkdir.

## ULUÇAY

Mənbəyini Güney Qafqaz silsiləsindən götürərək, Baş Daşağıldan keçən çay el arasında **Uluçay** (qədim çay) adlanır. Əslində hidronimin adı *Daşağıl* çayıdır. Eyni adlı kənddən keçdiyi üçün belə adlanmışdır. Uzunluğu 46 km olan bu çay mənsəbdə iki qola ayrılır. Bir qolu Şəkinin Dəhnə kəndinə, digər qolu isə Əlicançaya tökülür.

Çayın sol sahili dağlar və meşələrlə əhatə olunduğundan, burada tez-tez ayılara və digər vəhşi heyvanlara rast gəlmək olur. Baş Daşağıl sakini, hazırda təqaüdçü olan Hüseyn Seyfəddin oğlu söhbət edir ki, 1992-ci ildə kolxozun tütün sahəsini suvarmaq üçün Uluçaydan su açmağa getmişdim. Səhər saat on radələri idi. Çaylaqda bir boz ayı



ilə qarşılaşdım. Ayı bir qədər üzümə baxdıqdan sonra, üstümə yüyürdü. Yerdən daş götürüb, ona vurdum. O, pəncəsi ilə məni vurub, yerə yıxdı və iki pəncəsini sinəmə qoyub, ağzı ilə üzümü gəmirmək istədi. Bu vaxt mən onun iki qulağından yapışıb, geri basdım və üzümü dişləməsinə imkan vermədim. Bu minvalla bir saatdan artıq onunla güləşdik. Gah mən, gah da ayı altda qalırdı. Nəhayət, imkan tapıb, yerdən bir daş götürüb, ayının belinə mindim və onun başına daşla güclü zərbələr endirməyə başladım. Ayı artıq taqətdən düşürdü. Mən onu böyük bir daşın yanına çəkib, başını daşa vurmağa başladım. Bir qədər döydükdən sonra, ayı öldü. Artıq iki saata yaxın idi ki, biz döyüşürdük, mən də tamam qan içində idim; çox yerimdən yaralanmışdım. Belə halda evə gedib, uşaqları qorxuzmaq istəmədim. Kolxoz idarəsinə gəldim və sədr məni rayon xəstəxanasına apardı. Orada bədənimin çox yerinə tikişlər qoydular və mən on beş gündən sonra xəstəxananı tərk etdim.

## DƏYİRMANÇAY

Uluçaydan ayrılmış bir qoldur. Üstündə dörd yerdə dəyirman tikilib. Həmin dəyirmanların çərxi su ilə fırlanırmış. Hidronimin adı da bradan yaranıb. İndi həmin dəyirmanlardan yalnız biri nümunə üçün saxlanılıb. Dəyirmanı Usta Baxış və onun qardşı Abdulla Əlibəy oğulları tikiblər. Onlar həmçinin çəltik döymək üçün su ilə işləyən ding də icad ediblər ki, bununla camaatın işi xeyli yüngülləşib.

## FƏRHAD ARXI

Baş Daşağıl kəndinin qonşuluğunda olan Muxas kəndini su ilə təmin etmək üçün Dərənçi yaylağındakı bulaqlardan İsreyil dağının yamacı ilə bura arx çəkilib. Həmin arx, Fərhad arxı adlanır. İndi işləmir.

## VARTAŞEN –DƏRƏSİ

Baş Daşağılın şərqində yerləşir. Keçmiş dövrlərdə, hələ avtomobil olmayan vaxtlarda kənd sakinləri Vartaşenə bu dərədən keçərək gedərmişlər. İndi bu yol meşə ilə örtüldüyündən, daha istifadə olunmur.



## KÜKÜRDLÜ SU BULAĞI

Baş Daşağıl kəndinin şimal hissəsində, yaylaq yolunun üzərində yerləşir. Bulağın suyu kükürdlə zəngin olduğundan, kəndin sakinləri hələ ta qədimdən

müxtəlif dəri və mədə-bağırsaq xəstəliklərinin müalicəsində bu sudan istifadə edirlər.

## GÖBÜR DƏRƏSİ

Kəndin cənubi-şərqində, hər tərəfdən dağlarla əhatə olunmuş səfalı bir guşəsi *Göbür dərəsi* adlanır. Yaşıl meşələri, laləli-nərgizli çəmənlikləri, saf sulu Qoşabulaq, suyu bir çox xəstəliklərin dərmanı olan Hacı Ata bulağı bu yerə xüsusi gözəllik verir. Buranın meşələri zoğal, əzgil, alma, armud, qoz, həmçinin moruq, böyürtkən,



yemişən və sair meyvə və giləmeyvələrlə zəngindir. Bəzəkli çöl quşlarının oxuması, və ov heyvanlarının tez-tez adamın qarşısına çıxması buranı daha da maraqlı edir. Elə ona görə də bölgə əhalisi hələ ta qədimdən istirahət etmək üçün Göbür dərəsinə üz tuturlar. Əvvəllər burada xüsusi şərait olmadığından, qonaqlar ancaq çadırlarda gecələyirdilər. İndi iş adamı Sahib Allahverdiyev burada hər cür şəraiti olan istirahət mərkəzi tikdirmişdir. Artıq, ailəvi istirahətə gə-

lənlər burada ***"Saf təbiət"*** istirahət mərkəzinin xüsusi katreclərində istədikləri qədər qala bilirlər. Onu da qeyd edim ki, Sahib müəllimgilin nəsilləri Gülövşədə yaşamalarına baxmayaraq, Daşağıla bağlı adamlar olublar. Belə ki, onun əmisi Abbas kişi dövrünün zəngin şəxslərindən olduğundan, Daşağılda əkinçilik və heyvandarlıqla məşğul olmuş, kəndin müəyyən işçi qüvvəsi onunla birlikdə çalışmışdır. Abbas kişi həm də dövrünün sayılıb-seçilən igidlərindən olmuş, qaçaqlar arasında nüfuz qazanmışdır. Hətta Stalin SSRİ rəhbəri olmamışdan əvvəl, qaçaqlara girov düşmüş, təsadüfən Abbas kişi onunla rastlaşaraq, xilas etdirmişdir. Sonralar Stalin bu barədə Mircəfər Bağırova danışmış və Abbas kişini qorumağı tapşırmışdı. Bağırov bölgəyə səfər edərkən, həmişə Abbas kişinin evində qalardı. Çünki, onunçün ən təhlükəsiz yer bura idi.

## İPƏK FABRİKİ

Baş Daşağılda qədim zamanlarda (sovetlərdən qabaq) ipək fabriki fəaliyyət göstərmişdir. Fabrik kəndin xeyriyyəçi sakini Hacı Qəribə məxsus olmuşdur. Həmin dövürdə kənddə tut bağları olmuş, camaat ipəkqurdu saxlamaq üçün bu bağlardan istifadə etmişdir. Yerli əhali becərdiyi baramanı baha qiymətə Hacı Qəribə satmış, o da öz zavodunda emal edərək, ipək istehsal etmiş, yerli və xarici bazarlarda satmışdır. Həmin dövrlərdə Daşağıl ipək istehsalına görə Şəki ilə rəqabət aparırmış. Bu səbəbdən bura ikinci Şəki deyirlərmiş.

## NOVRUZ BABA ZIYARƏTGAHI

Baş Daşağıl camaatının sevə-sevə ziyarət etdikləri müqəddəs yerlərdən biri də böyük övliya Novruz Babanın şərif məzarıdır. Sağlığında öz kəraməti və qəbul edilən duaları ilə çarəsizlərin dadına yetən övliya, dünyasını dəyişsə də, qədirbilən daşağıllılar onu unutmur, xatirəsini ehtiramla yad edirlər. XIX əsrin ortalarından, XX əsrin əvvəllərinə qədər bu kənddə yaşayan Novruz Babanın kəramətlərinə, səxavətinə və mərhəmətinə dair əhvalatlar bu gün də məclislərdə maraqla danışılmaqdadır. Oxucular üçün də maraqlı olacağını nəzərə alıb, həmin əhvalatlardan bir neçəsini kitaba daxil etməyi qərara aldım.



Baş Daşağıl kənd sakini Aydın kişi (1884-1988) söhbət edirmiş ki, *Sarıgüneydə* taxıl səpirdik, Novruz Baba da bizimlə idi. Evə gələndə Baba mənə tapşırdı ki, gedəndə bizim həyətə girərsən, qurban kəsildiyini görəcəksən; de ki, yarısını filan qonşuya, yarısını da filan qonşuya versinlər (adba-ad tapşırdı). Onlar bizim qonşuluğumuzda yaşayırdılar. Gələndə həyətlərinə baxdım, heç kəsi görmədim. İşə qayıdanda gördüm həyətdə qurban kəsirlər. Novruz Babanın tapşırığını onlara çatdırıb, yoluma

davam etdim.

Bu hadisə Novruz Babanın kasıb olmasına baxmayaraq, necə səxavətli, əliaçıq və mərhəmətli olmasına sübutdur. Mərhəmət barədə həzrət Peyğəmbərimiz belə buyurur:

*Mərhəmət edənlərə Rəhman olan Allah-təala mərhəmət edər. Yer üzündəkilərə şəfqət və mərhəmət göstərin ki, göy üzündəkilər də sizə mərhəmət etsin.* (Tirmizi, Birr, 16/1924)

Novruz Babanın müasiri olan və 1988-də dünyasını dəyişən  Qara Aydın baba danışırmış ki, bir gün kənd ağsaqqalları ilə məscidin qabağında oturmuşduq. Novruz Baba da yanımızda idi. Birdən övliya əlini cəld irəli uzadıb, geri çəkdi və pərişan halda "vay-vay" dedi. Soruşduq ki, ay Baba, nə oldu sənə? Dedi "Hacı Əsəd Şəkidə faytondan yıxıldı, tuta bilmədim, qıçı sındı". Bu söhbətdən təxminən 2-3 saat sonra, gördük Hacı Əsədin faytonu gəlir, özünün də qıçı qırılıb.

Novruz Babanın kəraməti haqqında kənd sakini İsmayıl Əsgərov (1856-1964) söhbət edirmiş ki,  gecə kəllərim Əhmədağzı deyilən yerdə qalmışdı, gətirməyə qorxurdum.



Evdə oturduğum yerdə dedim "Ay Novruz Baba, kəllərimi qorumağı sənə tapşırıram, qurd-quş yeməsin". Səhər durub onları axtarmağa gedəndə yolda Baba qabağıma çıxdı. Gülə-

gülə dedi səhərə qədər qoymamısan yatmağa, sənin kəllərini güdmüşəm; filan ağacın altında yatıblar, get gətir.

Getdim gördüm dediyi yerdə yatıblar, götürüb gəldim.

Deyilənə görə bir nəfər Ərköyün dağında ağac qırırmış. Dağın ətəyi sıldırım qaya olduğundan, adətən buradan düşən ağaclar xırdalanar və ancaq odun üçün yararlı olarmış. Həmin adam isə, ağaclardan material üçün istifadə etmək istədiyindən, sınmasını istəmirmiş. Adam üzünü göyə tutaraq, deyib ay Allah, bu ağaclar dərəyə salamat düşsünlər, Novruz Babaya bir girvənkə düyü nəzir verərəm.

Bütün ağaclar dərəyə salamat düşür. Adam axşamüstü evinə qayıdır ki, sabah kəllərini gətirib ağacları aparsın. Yolda Novruz Baba ilə rastlaşsa da, ona heç nə demir. Səhər ağacları öküzə bağlayıb gətirəndə, kəndin girişində öküzlər dayanır və nə qədər çalışsa da, heyvanlar yerimir. Sahibi ağacları azaltsa da, yenə də öküzlər çəkmirlər. Adam yorularaq, heyvanları buraxır və evinə qayıdır. Yolda yenə də Novruz Baba ilə rastlaşır və heç nə demədən yanından ötüb keçmək istəyir. Övliya onu arxadan çağırır, deyir nəzirini niyə vermirsən ki, öküzlər ağacları çəksinlər. Belə deyib, çiynini açır və kürəyindəki sıyrıq yerlərini ona göstərir. Adam heyrət içində ondan uzaqlaşır. Səhər Novruz Babanın yanına xahişə gəlirlər ki, həmin adam həyəcandan xəstələnib, yataqdan qalxa bilmir, onun üçün dua etsin. Övliya onun evinə gedərək, əlini xəstənin başına çəkir və adamın qorxusu keçir, sağalaraq, ayağa qalxır.

Novruz Babanın duyumuna dair belə bir əhvalat danışırlar ki, cümə günü namazdan sonra Polad Molla Məhəmməd məsciddə Quran oxuyur, ağsaqqallar qulaq

asırlarmış. Ona diqqətlə qulaq asan Novruz Baba hiss edir ki, molla Quranı tələm-tələsik və yanlış oxuyur. Deyir: "Ay Molla Məhəmməd, inəyin filan yerdə otlayır, tələsmə, Quranı düzgün oxu".

Novruz Baba Dəstə adlı qızla evlənib və həyat yoldaşı rəhmətə gedəndən sonra Şəkidən adını bilmədiyimiz qadınla evlənib. Birinci nigahdan Abdurahman adlı bir oğlu olub.

Novruz Babanın müqəddəs qəbri üstündəki günbəz ötən əsrin əvvəllərində tikilib. Əsrin sonunda həmin tikili uçulub töküldüyündən, təmirinə ehtiyac yaranmışdır. Bunu nəzərə alan Mülküm Fərrux oğlu Mahmudov, günbəzi əsaslı təmir etdirərək, əvvəlki vəziyyətinə qaytarmışdır.

Ziyarətgahdakı yardımçı binanı isə, Saqi Əhməd oğlu Məmmədov öz şəxsi vəsaiti ilə tikdirib.

Bu xeyirxax insanların saleh əməllərini görəndə yadıma Quranın *"Mağara"* surəsinin 21-ci ayəsi düşdü:

***"... Möminlər isə: "Onların məzarı üstündə Allaha ibadət etmək məqsədilə bir məscid tikəcəyik!" – dedilər."***

## USUB BABA ZİYARƏTGAHI

XIX əsrdə Baş Daşağılda yaşamış görkəmli övliyalardan biri də Usub Babadır. Kəramət sahibi bu Allah dostunun Davud adlı bir oğ lu, Eminəxatun adlı bir qızı olmuşdur. Davud 1930-cu illərin əvvəllərində ahıl yaşlarında vəfat etmişdir. Bacısı Eminəxatun kəramətli övliya olmuşdur. Onun kəramətlərinə dair əhvalatlar bu günədək xalq arasında maraqla danışılmaqdadır. Deyilənə görə o, yaralanan heyvanların yarasını sarımaq üçün tez-tez dağlara gedər, bəzən gecə yarıda qayıdarmış. Bu da qardaşıyla Eminəxatun arasında tez-tez mübahisə yaranmasına səbəb olurmuş. Davud getdiyi yeri bildirməsini və onu da özü ilə aparmasını bacısından tələb edər, Eminəxatun da bundan qəti şəkildə imtina edər və hara, nə üçün getdiyini gizli saxlayarmış. Bir gün qardaşı onu gizli şəkildə izləmək qərarına gəlir. Və gördüyü mənzərədən heyrətə gəlir: dağlardakı ceyranlar və marallar bacısını dövrəyə alıb, onu ziyarət edirdilər. Eminəxatun qardaşının yaxınlaşdığını görüb, bu günədək ciddi-cəhdlə gizlətdiyi kəramətinin aşkar olmasından narahat olur və qeyb olması üçün Rəbbinə dua edir. Allah onun duasını qəbul edib, həmin anda qeybə çəkir. Odur ki, bəzi Allah dostları kimi,  Eminəxatunun da qəbri yoxdur. Sonralar Davud dünyaya yenicə gələn qızına bacısı Eminəxatunun adını verdi.

Usub Baba və övladları ilə ata-babadan qonşu olan Saymat Alosman qızı söhbət edir ki, yuxuda gördüm uçub, dağların arxasındakı dərəyə düşdüm. Orada olan ağ bir evə yaxınlaşdım.İçəridən uca boylu, göyçək sifətli, qırmızı

yanaqlı, göygöz bir qız çıxıb, məndən bura niyə gəldiyimi soruşdu. "Elə-belə" – dedim. Dedi: "Bilirsən bura haradır?" Duruxduğumu görəndə, dedi: "Bura ziyarətgahdır, get yumurta nəzir gətir". Qayıdıb, hər əlimə üç yumurta götürüb, həmin yerə getdim. Yumurtaları bir-bir ona verəndə axırıncısı əlimdən düşüb, sındı. Qadın dedi: "Narahat olma, bura gəlibsə, deməli Allah qəbul eləyib". Gördüyüm bu qəribə yuxunu səhər Molla Baxışa danışdım. O, Qurana istixarə eib, dedi: "Altı övladın olacaq, üç oğlan, üç qız, amma biri sınıq olacaq". Onda mənim üç qızım, bir oğlum vardı, beşinciyə hamilə idim. Bir müddətdən sonra oğlum oldu (Altıncı uşaq da oğlan oldu). Bir gün yolda Molla Baxışla rastlaşdım. Dedi bildinmi yuxuda gördüyün qız kim idi? Dedi o, Usub Babanın qızı Eminəxatun idi. Sənin təzə doğulmuş uşağının sifətində həmin ziyarətgahın nişanəsi var. Dedim görməmişəm. Dedi uşağın sifətinin sağ tərəfinə diqqətlə bax, görəcəksən. Evə gələndə baxdım gördüm



uşağın sifətində sağ gicgahdan aşağı göy xət gəlir. Uşaq böyüyəndə donuz kababı yedi, ondan sonra həmin nişanə yoxa çıxdı.

Yuxarıda qeyd etdim ki, Usub Babanın oğlu Davud Baba kəramətli övliya olmaqla, keçən əsrin 30-cu illərində vəfat etmiş, onun Nütbiyə adlı qadınla nigahından Eminəxatun adlı bir qızı, İsa adlı (1926 təvəllüd) bir oğlu olmuşdur.

İsa Baba, Xanım adlı qızla ailə qurub və dörd övladı olub. Onun Əfsarə adlı qızı hazırda Oğuz şəhərində yaşayır. Əfsarə xanımın öz ata-babaları haqqında danışdığı xatirələrin əhəmiyyətini nəzərə alıb, sizlərə təqdim edirəm:

- Mən uşaq olanda, həyətimizdə tut ağacları vardı. Bəzən, gecələr həmin ağacların koğuşunda işıq yandığını görürdüm. Anamdan soruşurdum ki, lampanı niyə ağacın koğuşuna qoymusan? Deyirdi gözünə görünür, keç içəri. Usub Baba ilə Davud Babanın yaşadığı ev torpaqdan idi. Biz həmin evdə yaşayırdıq. Evin döşəməsi yox idi, elə qədimdən torpağın üstünə həsir salıb, onun üstündən otururduq. Evin küncündən, boşqab boyda bir yerdən torpaq qaynayırdı. Həmin qaynayan torpağın rəngi və forması ətrafdakı torpaqdan fərqlənirdi. Qum kimi dənəvar olan bu torpaq, ətrafa yayılmır, qaynadığı yerdə azacıq hündürləşib, dayanırdı. Üstündən nə qədər götürülsə də, azalmır, yenə əvvəlki vəziyyətini alırdı. Evimizə ziyarətə gələnlərə atamgil bu torpaqdan tütyə verərdilər. Bu adət onlara öz ata-babalarından qalmışdı. Atam rəhmətə gedəndən sonra, anam babalarımızdan qalan həmin tut ağaclarını kəsdirdi və evin içərisinə taxtadan döşəmə vurdurdu. Ondan sonra ailəmizdə böyük uğursuzluqlar oldu. Babalarımız bir neçə adamın



yuxusuna girib, demişdilər ki, üstümüzə ağır yük qoyublar, deyin ki, onu götürsünlər. Anam belə məsələlərə inanmadığından, əhəmiyyət vermirdi. O evdə olmayanda mən usta gətirib, torpaq qaynayan yerdən polu kəsdirib, ora qapaq qoydum. Onu da deyim ki, Usub Babanın başdaşının dibindən sonralar həmin qaynayan torpağın rəngində torpaq qaynamağa başladı.

Yadımdadır, atam həmişə qəbiristanlıqdan ot çalıb, gətirərdi – deyə, Əfsarə xanım söhbətini davam etdirir - Hər dəfə otu tayaya yığanda bir heyvanımız ya ölərdi, ya da canavar parçalayardı. Bir gün dedim ay ata, sən qəbiristanlıqdan otu çalıb, gətirirsən, orada da kəramətli adamlar yatıb. Onların qəbrinin yanında bir qoç kəs, Usub Babamın ehsanından payla. Onda heyvanlarımız ölməyəcək. Atam bir toğlunun üstünə əlini qoydu, dedi bu onların ehsanıdır, gələn il ot çalmağa başlayanda kəsəcəm.

Vaxt keçdi, ot çalımı başlayanda toğlu artıq böyük bir qoç olmuşdu. Atam dedi bu qoçu qəbiristanlığa aparmağa mənim gücüm çatmaz, elə həyətdə kəsəcəm. Dedim ata, mən Usub Babamın qəbrinin yanında kəsməyi nəzir etmişəm, gəl ora aparaq. Aramızda mübahisə yarandı, dedim bu qoçu buraxıram, babalarımız qəbul edirsə, özü getsin onların qəbrinin yanına. Belə deyib, qoçun başını açıb, buraxdım. Heyvan düzəldi yola, biz də onun arxasınca... Qoç gəlib, Usub Babanın qəbrinin yanında dayandı və üzünü qibləyə

çevirdi. Atam dedi indi bunu burada kim kəsəcək? Dedim narahat olma, qoçu bura gətirən, kəsəni də gətirəcək. Birdən gördüm Manaf kişi qəbiristanlığın yanından keçir. Dedim Manaf dayı, bu qoçu kəsə bilərsənmi? Dedi niyə kəsmirəm, bu saat dəstamaz alıb, gəlirəm. Beləcə, o ehsanı kəsib, payladıq, ondan sonra heyvanlarımız ölmədi.



# BÖYÜRTKƏN PİRİ

Baş Daşağılda insanların daha bir inanc yeri ***Böyürtkən piri*** adıyla tanınan müqəddəs ziyarətgahdır. İnsanlar müxtəlif niyyətlərlə buranı ziyarət edib, ehsan verirlər. Pirdə böyük bir böyürtkən kolu bitdiyindən, adı da buradan götürülüb. Pir sözü *"ata-baba", "qoca pirani"* mənasındadır. Azərbaycanda əsasən övliyaların, şeyxlərin qəbirləri **pir** hesab edilir. Piri ziyarət etmək orada dəfn olunan Allah dostunun ruhuna ehtiram göstərmək, onu Allahla özün arasında vasitə tutmaq, onun xeyir-duasına nail olmaq mənasını daşıyır. Bəzi bölgələrdə bu cür yerlərə **ocaq** deyilir.

Pir sözü ilə bağlı Azərbaycanda 39 kənd adı, eləcə də yüzlərlə toponim vardır.



# DAŞAĞIL MƏSCİDİ

Keçən əsrin əvvəllərində Daşağılda iki məscid olmuşdur. Sovet hakimiyyəti qurulanda məscidlərdən birini kluba, digərini isə kolxozun taxıl anbarına çevirdilər. Nəhayət, Sovet hökuməti dağılanda anbar kimi istifadə edilən məscid, yenidən möminlərin istifadəsinə verildi və hal-hazırda fəaliyyətdədir.



Son yüz ildə kənddə aşağıdakı şəxslər imamlıq etmişlər:

Hacı Umar Əfəndi Hacı İsmayıl Əfəndi oğlu.
Hacı Daşdəmir Əfəndi
Molla Qazəli
Polad Molla Məhəmməd
Abdu oğlu Molla Məhəmməd
Molla Abuzər
Molla Salman
Bakıxan Əfəndi Salman oğlu

## BAŞ DAŞAĞIL KƏNDİNİN ŞƏHİD VƏ QAZİLƏRİ

Azərbaycan tarixinə nəzər salanda, kafir ermənilərin zaman-zaman xalqımızın üzərinə hücum etdiyini və qanlı qırğınlar törətdiyini görmək olar.

1905-1918-ci illərdə onların Azərbaycan xalqına qarşı törətdiyi soyqırımın yaraları sağalmamış, XX əsrin sonlarında yeni bir soyqırım cinayətinə əl atdılar. Bütün dövrlərdə olduğu kimi, bu dəfə də millətimizin vətənpərvər, mərd oğulları silaha sarılaraq, quduzlaşmış erməni kafirlərinin qarşısına çıxdılar. Belə bir məqamda  Baş Daşağıl kəndinin də qeyrətli cavanları xalqımızın müdafiəsinə qalxdılar. Onlardan bəziləri sağ-salamat qayıtsa da, bir neçəsi əlil, bir nəfəri isə şəhidlik məqamı qazandı.Bu kitabda onlar haqqında da məlumat verməyi özümə borc bildim.

Şəhid Həbibullayev Əlövsət Əliəfsər oğlu 1969-cu ildə doğulub. Tərtərin müdafiəsində iştirak edirdi. Bir gün düşmən çoxlu ağır texnika və canlı qüvvə ilə hücuma keçdi. Əlövsətgil mövqelərini əldən verməmək üçün düşmənə müqavimət göstərirdilər. Buna baxmayaraq, mühasirə getdikcə daralırdı. Gərgin vəziyyət yaranmışdı. Əlövsət öz döyüş yoldaşlarını mühasirədən çıxarmaq üçün, qumbaranı əlinə götürüb, düşmən üzərinə atıldı. Onların fikirlərini özünə cəlb edərək, dostlarının mühasirədən çıxmasına şərait yaratdı. Lakin düşmən hər tərəfdən onu nişan alaraq, gülləbarana tutdu. Döyüş yoldaşları onu qolları üstünə alaraq, qospitala çatdırsalar da, artıq gec idi...

***«Müharibəyə getməyib, evlərində oturan və müharibəyə getmiş qardaşları haqqında: «Əgər onlar sözümüzə qulaq assaydılar, öldürülməzdilər» - deyənlərə söylə: «Əgər doğru deyirsinizsə, onda** (bacarıb) **ölümü özünüzdən uzaqlaşdırın!»***

***«De: «Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə də əbədi yatacaqları yerlərə gedərdilər…»** Quran, «İman ailəsi» surəsi, 168-ci ayə.*

## *Qarabağ qazisi*

Baş Daşağıl kənd sakini Əmrahov İlham Şöyüb oğlu 1960-ci ildə doğulub. Sürücülük peşəsinə yiyələnən İlham, 1978-ci ildə Xocalıda dəmir yol körpüsünün tikintisində iştirak edir. Orada işlədiyi bir neçə il ərzində yerli əhali ilə qaynayıb-qarışır və özünə çoxlu dostlar qazanır. Aradan on il keçəndən sonra, Xocalıdan olan dostları Daşağıla – İlhamın yanına gəlirlər ki, ermənilərin hücumundan qorunmaq üçün, onlara silah lazımdır. İlham öz pulu ilə bir neçə ov tüfəngi alaraq, onlara bağışlayır və yola salır. Aradan bir neçə ay keçəndən sonra – 1989-cu ilin əvvəllərində İlham Əmrahov dostlarına kömək etmək üçün Xocalıya yola düşür. Və sonadək – Xocalı işğal olunan günə kimi İlham orada dostları ilə çiyin-çiyinə döyüşür. Bu müddətdə başına çox işlər gəlir (daha doğrusu gətirilir). Belə ki, Xocalıda döyüşdüyü illər ərzində o, arabir ailəsi və övladları ilə görüşmək üçün Oğuza gəlirdi. Burada olduğu günlərdə o, ermənilərin heç nə olmamış kimi, şəhərdə sərbəst gəzib-dolaşmasını qəbul edə bilmir və onlardan



sakitcə Oğuzu tərk etmələrini tələb edir. Beləliklə, ermənilərin şikayəti əsasında hüquq mühafizə orqanları İlham Əmrahov haqqında axtarış elan edirlər. Artıq o, Oğuza ailəsi ilə görüşməyə gələndə küçədə sərbəst gəzə bilmirdi ki, həbs olunacaq. Ermənilər isə, özlərini bu yerlərin sahibi kimi aparırdılar. Nəhayət, günlərin birində İlham həbs olundu və ermənipərəst prokuror Sadəddin İbrahimovun təkidi ilə altı ay Gəncə istintaq təcridxanasında saxlandıqdan sonra, şərti iş kəsildi. Maraqlıdır ki, üzləşdiyi bu qədər haqsızlıqlar və ədalətsizliklər İlhamın qəlbindən vətən sevgisini silə bilmir. Türmədən çıxan kimi, Xocalıya – Vətən torpaqlarını müdafiə etməyə gedir. Maşınını Ağdamda bir həyətə qoyub, vertolyotla Xocalıya gedir. Bu minvalla, 1992-ci ilin fevralın 26-na qədər burada dostları ilə çiyin –çiyinə döyüşür. Xocalı işğal olunan gün bir çox döyüş dostlarını və komandirini itirir. O müdhiş gecədə sağ qalanlar Ağdama doğru üz tuturlar. Gecənin qaranlığı, havanın dumanlı olması və yerdə dizəcən qar olması dağlarda hərəkət etməyi çətinləşdirirdi. Çoxları azaraq, yenidən qayıdıb Xocalıya girmiş və düşmənə əsir düşmüşlər. İlhamgilin dəstəsi çox çətinliklə də olsa, Ağdama gəlib çıxa bildilər. İlham aylarla yorğun, yuxusuz və stresdə olmasına baxmayaraq, Ağdama gəlib çatandan sonra, evinə qayıtmayıb. Şəxsi maşınını oradan götürərək, 19-cu posta qayıtmış, meşələrdə qalan Xocalıdan olan yaralıları və meyitləri daşımağa başlamışdır. Nəhayət,

işğaldan bir həftə sonra, ağdamda onu axtaran qohumları ilə rastlaşır və onların təkidi ilə ailəsi ilə görüşmək üçün Oğuza gəlir. Burada yenə də təqiblərlə qarşılaşır. Belə ki, şəxsi maşını ilə qəzaya düşməsi, onu həbs etmək üçün bəhanə olur. Yenə də həmin ermənipərəst S. İbrahimov, İlhamı həbs etdirərək, dörd ay istintaq təcridxanasında saxlatdırır. Nəhayət xalqın təkidli tələblərindən sonra, ona dörd il şərti iş kəsərək, təcridxanadan buraxırlar.

53 yaşı olmasına baxmayaraq, Daşağılın vətənpərvər oğlu İlham Əmrahov yenə də “torpaqlarımız uğrunda döyüşməyə hər an hazıram” deyir. Onun keçdiyi mənalı həyat yolu gənclərimizə bir nümunədir.

***Baş Daşağıl kəndindən Qarabağ mühraibəsində iştirak etmiş qazilər:***

Səmədov Şakir Zakir oğlu
Balabəyov Mehman Balabəy oğlu
Balabəyov Rüstəm Balabəy oğlu
Məmmədov Əflan Abdurəhman oğlu
Cabbarov Habil Yusif oğlu
Xasməmmədov Fuad Aləddin oğlu
Rəhimov  Mənsur Baxşəli oğlu
Dadaşov Fikrət Aləşrəf oğlu
Səmədov Qüdrət Mədət oğlu
Abdulxalıqov Həzi Qəyyum oğlu
Mahmudov Ramazan Əbülfət oğlu
Əsədov Midhət Tələt oğlu

# BAŞ DAŞAĞIL KƏND MƏKTƏBİ

Qədim tarixə malik olan Baş Daşağıl kəndində insanlar hələ ta qədimdən yazıb-oxumağı kənddə fəaliyyət göstərən mədrəsədə öyrənirdilər. 1923-də kənddə ilk dünyəvi məktəb açıldı. Beş illik məktəbin ilk qurucusu və rəhbəri Elməddin müəllim olmuşdur. 1929-da yeddiilliyə çevrilən məktəb, həm də ərəb əlifbasından latına keçdi. 1938-də isə, burada onillik orta məktəb yarandı. 1941-də kəndin bütün kişiləri – o cümlədən müəllimlər ikinci



Dünya müharibəsinə getdiklərindən, məktəb yenidən yeddiilliyə çevrildi. 60-cı illərin əvvəllərində isə, Baş Daşağılda yenidən onillik orta məktəb bərpa edildi. Məktəbin yarandığı gündən, ona aşağıdakı şəxslər rəhbərlik etmişlər:

1. Mustafayev Elməddin
2. Həbib Naxçıvanlı
3. Əsədov Abduləzə
4. Əliyev Musa
5. Mustafayev Cümə
6. Əsədov Əsəd
7. Mütübillayev Yamən
8. Əsədova Muslümat
9. Əliyev Cahangir
10. Şirinov Əmir
11.XasməmmədovƏləddin
12. Daşdəmirova Zinyət
13. Dadayeva Nadiyə



*Baş Daşağıl kəndində əhalinin maariflənməsinə xidmət edən və yaddaşlarda dərin iz qoyan bəzi müəllimlərin adlarını çəkməyi özümə borc bilirəm:*

Aşurov Qafur
Cabbarov Cabbar
Əzizov Abdüləziz
Əsgərov Əhmədiyyə
Əliyeva Xansoltan
Əliyeva Lalə
Əsədova Möminat
Həmidov Əhməd
Əsədov Tələt
Rəhimov Gəray
Ramazanov Həmid
Salamova Seyran
Xasməmmədova Gülsənəm
Əliyeva Sevdaya
Əliyeva Hədiyyə

# MƏDƏNİYYƏT EVİ

Mədəniyyət evi kəndin mərkəzində yerləşir. Bura sovetlərdən qabaq məscid olub. Kommunistlər binanı klub ediblər.



Klub fəaliyyətə başlayandan burada azərbaycanın bir çox böyük sənətkarları – o cümlədən Bülbül, Sara Qədimova, Teymur Mustafayev, Polad Bülbül oğlu konsert veriblər. Baş Daşağlın füsünkar təbiəti onları o qədər valeh edib ki, hətta ezamiyyə vaxtları başa çatsa da, sənətkarlar






şəhərə qayıtmağa tələsməyiblər. Bir neçə gün burada qalıb, doyunca istirahət edib, sonra gediblər.

1980-ci illərdə isə mədəniyyət evinin qonaqları xalq artistləri Süleyman Abdullayev, Kəmalə Rəhimli, Rəhilə Bəndəliyeva olmuşlar.

Yuxarıda qeyd etdiyim kimi, kənd füsünkar təbiətə malik olduğundan, bir çox müğənnilər öz mahnılarına klip çəkdirmək üçün məhz bura üz tuturlar.

Biz mədəniyyət evində qonaq olanda burada əlifba bayramı keçirilirdi. Tədbirdən çəkdiyim bir neçə fotonu diqqətinizə çatdırıram.



# BAŞ DAŞAĞIL XALÇAÇILARI

Hələ ta qədimdən Baş Daşağılda sənətkarlığın bütün növləri – o cümlədən xalçaçılıq sənəti geniş inkişaf etmişdir. Kəndin xalça ustaları nəinki Azərbaycanda, hətta bütün keçmiş Sovetlər Birliyində məşhur olmuşlar. Kənd sakini, xalçaçı Mərmər Mustafa qızı Dəftəzanovanın SSRİ Rəssamlar İttifaqının üzvü olması dediklərimizə əyani sübutdur. Onun toxuduğu xalılar bir çox beynəlxalq sərgilərdə nümayiş etdirilmişdir.



Mərmər Dəftəzanova sənəti anası Nurcahandan öyrənib. Onun qəzetə verdiyi müsahibəsindən məlum olur ki, uşaqlığında kəndin kənarındakı çəmənliyə gedər, bəzən dağların yamacına qədər qalxarmış. Kəpənək kimi çiçəkdən-çiçəyə, güldən-gülə qonarmış. Dağ çiçəklərindən iri bir dəstə bağlamağı da çox xoşlarmış. Bu onun ən sevimli məşğuliyyəti imiş. Kim bilir, bəlkə də çiçəklərin bu əlvanlığı, gözəlliyi idi Mərmər xanımda xalı toxumağa sonsuz həvəs oyadan. Balaca olmasına baxmayaraq, saatlarla anasının yanında dayanar, onun sürətlə hərəkət edən əllərinə, ilmələrin ahənginə heyranlıqla tamaşa edərmiş.

Jurnalistin “Siz xalçaların eskizini haradan götürürsünüz? Yəqin əvvəlcədən necə toxuyacağınızı ölçüb-biçir, necə deyərlər, təxmini çertyoj cızır, sonra işə başlayırsınız” sualına, Mərmər xanımın verdiyi cavab çox maraqlıdır:

“Yox, mənim iş üslubum heç də sizin fikirləşdiyiniz kimi deyil.Əvvəlcədən toxuyacağım xalça haqqında heç də fikirləşmirəm. Hər şey sonradan yaranır. Naxışlar da, rənglər də. Elə ki, işə başladım, ətrafdakı hər şeyi unuduram. Xəyalımda ancaq bir vaxt uşaqkən oynadığım çəmənliklərdəki güllər, çiçəklər canlanır. Toxuduğum hər bir xalı da öz rəngini, naxışlarını onlardan alır. Yaşımın çoxluğuna baxmayın, o çəmənləri indi də tez-tez gəzib dolaşıram”. Müsahibədən aydın olur ki, Mərmər xanıma hər bir əsərin mövzusunu təbiət özü verirmiş. Toxuduğu xalçalara baxanda elə bil təbiətin bir parçası ecazkar əllərin qüdrəti ilə ilmələrə köçürülüb. Adama elə gəlir ki, Mərmər xalanın ürəyinin döyüntüsü ilmələrdən eşidilir. Bəli, bu gözəlliyi ancaq ürək yarada bilər. Ana təbiətə, bu qədim el sənətinə vurğun bir ürək.



*Xalçaçı Güllü nənə*

***Baş Daşağıl kəndində xalçaçılıq sənəti ilə məşğul olmuş bəzi sənətkarların adlarını xatırlatmaq yerinə düşərdi:***

Cabbarova Lətafət (həm də kəlağayı ustası olub)
Dadaşova Mərhuma
Dəftəzanova Mərmər
Əmrahova Möminəxatun
Fərzəliyeva Zeynəb
Həmidova Zeynəb
Kərimova Malikə
Kərimova Mərmər
Səlimova Güllü
Zeynəb Həsən qızı
Allahverdiyeva Zalikə



# BAŞ DAŞAĞIL KƏNDİNİN BƏZİ GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ VƏ TANINMIŞ ZİYALILARI



**Abdulqədirov Zahid Zabit oğlu –** *1938-də doğulub. Gəncə Pedoqoji İnistitutunu (1962) bitirib. Azərbaycan Respublikası Təhsil Nazirliyində maliyyə-kredit şöbəsinin müdiri vəzifəsinə qədər yüksəlib. 1985-də dünyasını dəyişib, üç övladı qalıb.*



**Abdurəfiyeva Gülnarə Həmzət qızı –** *1964-cü ildə doğulub. Azərbaycan Xalq Təsərrüfatı İnistitutunu 1987-də bitirərək, Vartaşen rayon Maliyyə şöbəsində, Pensiya Fondunda çalışıb. Hazırda Maliyyə Nazirliyində Baş Məsləhətçi vəzifəsində işləyir. Ailəlidir.*



**Abdurəfiyev Nizami Həmzət oğlu** - *1960-da doğulub. Bakı Dövlət universitetinin fizika-riyaziyyat fakultəsini 1990-cı ildə bitirib. Fizika-riyaziyyat elmlər namizədidir. BDU-nun fizika fakultəsində laboratoriya müdiri işləyib. Ailəlidir, üç övladı var.*



**Abdurəfiyev Fizuli Həmzət oğlu** - *1967-də doğulub. Səmərqənd Ali Hərbi Məktəbi bitirib. Podpolkovnik rütbəsində MN hərbi briqadsında avtomobil xidməti rəisi işləyib. Hazırda Sumqayıt sürücülük məktəbinin müəllimidir. Ailəlidir, üç övladı var.*



**Abdulsalamov Ərəstun Məsim oğlu**– *1947-də doğulub. Azərbaycan Pedoqoji İnstitutunun riyaziyyat fakultəsini (1971) bitirərək, pedoqoji fəaliyyətə başlayıb. Hazırda Ali katoqoriyalı riyaziyyat müəllimi olaraq, Sumqayıt şəhər 25 saylı orta məktəbdə çalışır. Fəaliyyəti dövründə müxtəlif fəxri fərmanlarla, o cümlədən "Xalq*

*təhsili əlaçısı" döş nişanı və "Əməkdar müəllim" fəxri adı ilə təltif edilib. Ailəlidir, iki övladı var.*



**Abdullayev Qabil Abdulla oğlu -** *1949-cu ildə doğulub. 1972-də Azərbaycan Poltexnik İnistitutunu bitirib. 80-də Moskvada aspiranturanı bitirərək, elmlər namizədi dərəcəsini qazanıb. Hazırda Türkiyənin Sparta şəhərində Dəmirəl adına universitetdə kafedra müdiri, elmlər doktoru, professordur. 35-dən çox elmi əsəri yayımlanmışdır. Toxuculuq sənayesi sahəsində 6 patenti var. Ailəlidir, üç övladı var.*



*Qızı- Abdullayeva Təranə Bakı Dövlət Universitetinin filologiya fakultəsini və magistraturasını bitirmişdir. Təhsilini Ege Universitenin doktoranturasında davam etdirmiş və elmlər doktoru alimlik adını almışdır. Halhazırda Ağdeniz Universitetində çalışır.*



**Allahverdiyeva Məhəbbət Müslüm qızı** – *1957ci ildə doğulub. Azərbaycan Pedoqoji İnstitutunun biologiya fakultəsini bitirib. Sumqayıt şəhərində pedoqoji fəaliyyətlə məşğuldur. Ali katoqoriyalı müəllim kimi dövrü mətbuatda və beynəlxalq elmi konfranslarda tez-tez çıxışlar edir. Ailəlidir, üç övladı var.*



**Allahverdiyeva Müsülmat Allahverdi qızı** – *1960-da doğulub. Azərbaycan Dövlət İqtisad Universitetini (1984) fərqlənmə diplomu ilə bitirib. İqtisad elmlər namizədi, İqtisad Universitetinin Kommersiya kafedrasında dosentdir. Altmışdan artıq elmi məqalənin, üç dərs kitabının müəllifidir. Ali təhsilli iki övladı var.*



**Allahyarov Nizami Nəzər oğlu** – *1945-də doğulub. Tambov Aviatexniki Məktəbini (1966) bitirib. Yevlax aeroportunda mühəndis, daha sonra Binə hava limanında bort mexaniki işləyib. Hazırda Milli Aviasiya Akademiyasında mühəndis vəzifəsində çalışır. Ailəlidir, iki övladı var.*



**Alxasov Ağabala İdris oğlu –** *1937-də doğulub. Azərbaycan Politexnik İnistitutunu bitirərək, Vartaşen rayon avtobazasının müdiri, Keşlə maşınqayırma zavodunun texniki nəzarət şöbəsinin rəisi vəzifələrinə qədər yüksəlib. İki övladı qalıb.*

**Alxasov Azər Əlmirzə oğlu –** *1976-da doğulub. Bakı Uçuş Hazırlıqları Təlim Mərkəzinin müdavimi olub. 1997-ci ildən MN Hərbi Hava Qüvvələrində pilot kimi xidmət edir. Hərbi xidmət mayorudur. Ailəlidir, iki övladı var.*



**Aşurov Abdulkərim Musa oğlu –** *1925-ci ildə doğulub. Azərbaycan Kənd Təsərrüfatı İnsititutunu bitirərək, yaşadığı kənddə və digər kəndlərdə kolxoz sədri, sovxoz direktoru vəzifələrində çalışmışdır. "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. 1985-də dünyasını dəyişən Abdulkərim kişinin yurdunda üç övladı qaldı.*

**Babayev Tehran Rasim oğlu** - *1987-ci ildə doğulub. 2005-də C. Naxçıvanski adına hərbi litseyi, daha sonra isə, Ali Hərbi Məktəbi bitirib. Hazırda baş leytenant rütbəsində motoatıcı qoşununda taqım komandiri vəzifəsində xidmət edir.*



**Babayev Sərraf Kazım oğlu –** *1958-də doğulub. Xalq Təsərrüfatı İnstitutunun sənayenin planlaşdırılması fakultəsini 1979-cu ildə bitirərək, əmək fəaliyyətinə Oğuz rayon İstehlak cəmiyyətində mühasib kimi başlayıb. Hazırda rayon xəstəxanasının baş mühasibidir. Ailəlidir, üç övladı var.*



**Balabəyov Balabəy Kərim oğlu -** *1987-ci ildə doğulub. 2005-də C. Naxçıvanski adına hərbi litseyi, daha sonra isə, Ali Hərbi Məktəbi bitirib. Hazırda leytenant rütbəsində motoatıcı qoşununda taqım komandiri vəzifəsində xidmət edir.*



**Baxışov Baxış Zaməddin oğlu –** *1952-ci ildə doğulub. Azərbaycan Politexnik İnistitutunu 1974-də bitirərək, Tele-Radio İstehsalat Birliyinin sədri vəzifəsinə qədər yüksəlib. 2008-də vəfat edib.*

**Camalov Camal Kamal oğlu** - *SSRİ Nazirlər sovetində referent işləmiş, hal- hazırda ictimai işlərlə məşğul olan, ictimai-siasi xadim.*



**Cabbarov Mənsur Cabbar oğlu**

*1956-cı ildə doğulub. ADU-nun mexanika-riyaziyyat fakultəsini 1979-cu ildə bitirərək EA-nın Riyaziyyat və Mexanika İnstitutunda əmək fəaliyyətinə başlayıb. Fizika-riyaziyyat elimlər namizədir, EA-nın geologiya insititutunun aparıcı elmi işçisidir. Ailəlilidir, iki övladı var.*



**Daşdəmirov Rövşən Fərrux oğlu** *– 1958-ci ildə doğulub. 1980-də Azərbaycan Pedaqoji İnstitutunun tarix fakultəsini bitirib. Oğuz rayon tarix diyarşünaslıq muzeyinin direktoru işləyib. 2010-da 52 yaşında dünyasını dəyişib. Qızı Pərvanə Gəncə Pedoqoji Universitetini; digər qızı sTəranə isə, Zaqatala Müəllimlər İnistitutunu bitirib.*



**Daşdəmirova Nərminə İbrahimxəlil qızı –** *1949- cu ildə doğulub. Atası İbrahimxəlil kişi dövrünün sayılıb-seçilən igidlərindən olub. Nərminə xanım 1972 də Azərbaycan Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirərək, Oğuz rayon uşaq xəstəxanasında həkimlik fəaliyyətinə başlayıb. Hazırda bu şərəfli peşəni davam etdirir. Ailəlidir, üç övladı var.*



**Əhmədov Abbas Nemət oğlu –** *1961-də doğulub. Azərbaycan İnşaat Mühəndisləri İnistitutunu 1984-cü ildə bitirərək, Bakı Baş Tikinti idarəsində sahə rəisi, baş mexanik vəzifələrində çalışıb. Hazırda **"Qara Aydın"** dəmir-beton inşaat firmasının həmtəsisçilərindən biridir. Ailəlidir, iki övladı var.*



**Əhmədov Əbülfət Hümbət oğlu** – *1965-ci ildə doğulub. Azərbaycan İnşaat Mühəndisləri İnistitutunu 1989-cu ildə bitirərək, Kənd Tikinti trestinin 22 saylı idarəsində usta, iş icraçısı, sahə rəisi vəzifələrində çalışmış, daha sonra Dəmir-beton zavodunda direktor müavini olmuşdur. Hazırda **"Qara aydın"** dəmir-beton tikinti firmasının həmtəsisçilərindən biridir. Ailəlidir, iki övladı var.*

**Əhmədov Əhməd Aydın oğlu -** *1922- də doğulub. 2010) – Vartaşen rayon Partiya Komitəsinin II katibi, rayon İcraiyyə Komitəsinin sədri və mədəniyyət şöbəsinin müdiri vəzifələrində çalışıb. 2010-cu ildə dünyasını dəyişib.*



**Əhmədov Hümbət Aydın oğlu** - *1930-cu ildə doğulub. Şəki tibb texnikumunu bitirərək, Baş Daşağıl sakinlərinin sağlamlığının keşiyində durmuşdur. Qayğıkeş həkim kimi el-obanın hörmətini qazanan Hümbət həkim 2004-də dünyasını dəyişib. Altı övladı qalıb.*



**Əhmədov Məhəmməd Aydın oğlu** - *1946-cı ildə doğulub. 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. Əmək fəaliyyətinə Sumqayıt kompressorlar zavodunda, elmi fəaliyyətə isə Neft-kimya avtomat Elm İstehsalat Birliyində başlayıb. 1980-ci ildən Sumqayıt Dövlət Universitetində fəaliyyətə başlayan texnika elmlər doktoru, professor Məhəmməd müəllim çalışdığı Universitetdə Prorektor vəzifəsinə qədər yüksəlmişdir. Ondan çox dərsliyin və monoqrafiyanın müəllifidir. Elmi məqalələri Azərbaycan, Türkiyə, İsrail və digər ölkələrin nüfuzlu elmi jurnal və məcmuələrində dərc olunub. Beş müəlliflik şəhadətnaməsinin, bir patentin müəllifidir.*



**Əhmədov Qüdrət Hümbət oğlu –** *1967-də doğulub Azərbaycan Xalq Təsərrüfatı inistitutunu 1990-da bitirərək, Oğuz rayon Maliyyə idarəsində iqtisadçı vəzifəsinə təyin olunmuşdur. 1992-ci ildən vergi sistemində çalışan Qüdrət müəllim bu sahədə bir çox məsul vəzifələrdə olmuşdur. Hazırda o, Vergilər Nazirliyinin 11 saylı regional idarəsinin audit şöbəsinin rəisidir. Ailəlidir, üç övladı var.*



**Əhmədov Nemət Aydın oğlu** - 1937-də doğulub. *Vartaşen rayonunun "Varlı həyat" və "Lenin bayrağı" qəzetlərinin redaktoru, rayon kino birliyinin direktoru, vartaşen rayon partiya komitəsində təlimatçı, sovxoz direktoru, çörək zavodunun direktoru, rayon poçt teleqraf şöbəsinin rəisi vəzifələrində çalışb. 2002-də dünyasını dəyişib, beş övladı qalıb.*

**Əhmədova Şəlalə Məhəmməd qızı –** *1977-də doğulub. Sumqayıt Dövlət universitetini (1994) bitirib, magistr elmi dərəcəsi var. Hazırda "Xəzər" səhmdar cəmiyyətində çalışır. Ailəlidir, üç övladı var.*



**Əliyev Bəxtiyar Mövsüm oğlu –** *1956-cı ildə doğulub. Mingəçevir Baza Politexnik Texnikumunu 1978-də bitirərək, Qazaxıstanda neft sənayeində çalışıb. Hal-hazırda fərdi sahibkarlıqla məşğuldur. Ailəlidir, iki övladı var.*



**Əliyev Cahangir Müslüm oğlu –** *1940-cı ildə doğulub. BDU-nun Coğrafiya fakultəsini 1963-də bitirib, Daşağıl məktəbində direktor müavini və direktor vəzifələrində çalışıb. Daha sonra rayon təhsil şöbəsinə inispektor təyin olunub. Hal-hazırda təqaüdçüdür. Ailəlidir, Ali təhsilli üç övladı var.*



**Əliyeva Ədalət Müslüm qızı –** *1953-cü ildə doğulub. Azərbaycan Tibb İnistitutunu bitirərək, 1976-cı ildə Oğuz rayon xəstəxanasında həkimlik fəaliyyətinə başlayıb. Hazırda həmin xəstəxananın pediatriya şöbəsinin müdiridir. Ailəlidir, üç övladı var.*



**Əliyeva Gülnaz Müslüm qızı –** *1942-də doğulub. Əvvəlcə Ağdaş Tibb Texnikumunu, daha sonra Azərbayca Tibb İnistitutunu fərqlənmə diplomu ilə (1974) bitirərək, Vartaşen rayonunda terapevt kimi fəaliyyətə başlayıb. Hazırda Sumqayıt bir saylı polikilinikasında həkim-terapevt işləyir. Ailəlidir, üç övladı var.*



**Əliyeva Solmaz Müslüm qızı –** *1947-ci ildə doğulub. BDU-nun tətbiqi riyaziyyat fakultəsini bitirib. Əmək fəaliyyətinə Daşağıl məktəbində başlayıb. Sonra ailə vəziyyəti ilə əlaqədar Əlibayramlı (Şirvan) şəhərinə köçüb və orada pedoqoji fəaliyyətini davam etdirib. İstedadlı riyaziyyatçı kimi bölgədə nüfuz qazanıb. 1989-da dünyasını dəyişən Solmaz xanımın yurdunda iki övladı qalıb.*



**Əliyeva Zülfünaz Müslüm qızı –** *1950-ci ildə doğulub. 1975-ci ildə Azərbaycan Tibb İnstitutunun pediatiria fakultəsini bitirərək, Oğuz rayon xəstəxanasında həkim-pediatr kimi fəaliyyətə başlayıb. Ailəlidir, üç övladı var.*



**Əliyev Əli Məcid oğlu** – *1930-cu ildə doğulub, Azərbaycan Kənd Təsərrufatı İnstitutunu bitirib. 1970-ci illərdə Vartaşen rayon partiya komitəsinin birinci katibi vəzifəsinə qədər yüksəlib. Daha sonra Qəbələ, Ağdaş rayonlarında Kənd Təsərrüfatı İdarəsinin rəisi, daha sonra Kənd Təsərrüfatı Nazirliyinin İdarə rəisi, Şəki rayonunda müxtəlif kənd təsərrufatı sahələrində direktor vəzifəsində çalışıb.. 2010-cu ildə dünyasını dəyişib. Altı övladı var.*



**Əliyev Əmir Allahverdi oğlu** – *1954-cü ildə doğulub. Azərbaycan Xalq Təsərrüfatı Inistitutunu 1976-da bitirərək, Oğuz Kənd Təsərrüfatı idarəsində iqtisadçı vəzifəsində çalışıb. 1980-ci illərdə Oğuz rayon komsomol komitəsində, partiya komitəsində şöbə müdiri vəzifələrinə qədər yüksəlib. Daha sonra isə rayon Maliyyə idarəsinin rəisi vəzifəsində çalışıb. Hazırda "Uğan" MMC-nin direktorudur. Ailəlidir, dörd övladı var.*



**Əliyev Vasif Əli oğlu** – *1959-da doğulub. 1984-cü ildə APİ-nin tarix-sovet hüququ fakultəsini, 1995-də isə, BDU-nun hüquq fakultəsini bitirib. Vartaşen rayon ASB həmkarlar ittifaqının hüquqşünası, İstehlak Cəmiyyətinin baş hüquqşünası vəzifələrində çalışıb. Daha sonra Oğuz rayon prokurorluğunda və rayon İcra Hakimiyyəti Başçısı Aparatında hüquq şöbəsinin müdiri vəzifələrində çalışıb. Bir müddət vəkilər kollegiyasının rəyasət heyyətinin üzvü, 2007-ci ildən isə, Nəsimi rayon İcra Hakimiyyəti Başçısı Aparatında hüquq şöbəsinin müdiridir. Ailəlidir, üç övladı var.*



**Əmrahov Həsrət Kərəm oğlu** – *1961-ci ildə doğulub. Azərbaycan İnşaat Mühəndisləri İnstitunu bitirərək, 1986-cı ildən Bakı şəhər İH bərpa idarəsinin rəisi vəzifəsində çalışıb. Daha sonra Binəqədi İH-də tikinti şöbəsinin rəisi işləyib. Halhazırda* ***“Avesta”*** *şirkətlər qurupunun baş mühəndisi olaraq, dünya şöhrətli* ***“Xəzər adaları”*** *layihəsinin icrasında çalışır. Ailəlidir, üç övladı var.*



**Əsədov Abduləzəl Əsəd oğlu** – *1959-cu ildə doğulub. 1988-də Rusiyanın Çeboksar şəhərində xüsusi orta milis məktəbini, 96-da Bakı Sosial İdarəetmə və Politologiya inistitutunu bitirib. Hazırda polis podpolkovniki rütbəsində Oğuz rayon polis şöbəsində rəis müavinidir. Ailəlidir, bir övladı var.*



**Əsədov Fədai Tələt oğlu** – *1976-cı ildə doğulub. Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini 2000-ci ildə bitirib, leytenant rütbəsində Füzulidəki motoatıcı taborda taqım komandiri kimi fəaliyyətə başlayıb. Füzuli, Xocavənd, Ağdam rayonlarının müdafiəsində iştirak edib. Hazırda mayor rütbəsində olan F. Əsədov, dəfələrlə "Qüsursuz xidmətlərə görə" medallarla təltif olunub. Ailəlidir, iki övladı var.*



**Əsədov Midhət Tələt oğlu** – *1972-ci ildə doğulub. Sverdlovsk Ali Hərbi Məktəbi 1993-də bitirərək, Qarabağ uğrunda gedən dğyüşlərə qatılıb. Ağdam, Füzuli, Murovdağ uğrunda gedən döyüşlərdə istehkamçı kimi fəal iştirak edib. Onun qurduğu minalara*

*dəfələrlə düşmən texnikası və canlı qüvvəsi düşüb, tələf olmuşdur. Dəfələrlə "Qüsursuz xidmətlərə görə" medalları ilə təltif edilmişdir. Hazşrda N saylı hərbi hissədə mayor rütbəsində mühəndis xidməti rəisidir. Ailəlidir, iki övladı var.*



**Əsədov Möhüddin Elməddin oğlu** *– 1930-da doğulub. Azərbaycan Tibb İnistitutunu (1953) fərqlənmə diplomu ilə bitirib, təyinatla Qazaxıstan Respubilkasında həkimlik fəaliyyətinə başlayıb. Çox keçmədən Almaatı şəhər xəstəxanasının baş həkimi vəzifəsinə qədər yüksəlib. 1975-də vətənə dönərək, Bakı Baş Səhiyyə idarəsinin rəisi vəzifəsinə təyin olunub. Tibb elimlər namizədi, dossent kimi ATU-da dərs deyib. 1999-cu ildə dünyasını dəyişib.*



**Əsədova Mahitəvan Əsəd qızı** – *1950-ci ildə doğulub. Azərbaycan Pedoqoji İnistitutunu bitirib. Vartaşen rayon Komsomol Komitəsində, Partiya Komitəsində, "Lenin bayrağı" qəzetində, "Azərbaycan", "İncəsənət", "İslamın səsi" kimi, respubilka qəzetlərində çalışıb. Hal-hazırda Oğuz rayon iki saylı orta məktəbində müəllimədir.*



**Əsədova Mahitac Elməddin qızı** - *1939-cu ildə doğulub. Bədən Tərbiyəsi İnsititutunda kafedra müdiri vəzifəsinə qədər yüksəlib. Vətənpərvər ziyalı, istedadlı şairə kimi rəğbət qazanıb. Bir kitab müəllifi olan Mahitac xanım 2003-də dünyasını dəyişib (onun bir neçə şeiri bu kitabın sonuncu fəslində çap olunub).*



**Əzimov Anar Həmid oğlu** - *1979-cu ildə doğulub. Azərbaycan Tibb Universitetini bitirərək, 2003-dən Oğuz rayon xəstəxanasında həkimlik fəaliyyətinə başlayıb. Hazırda həmin xəstəxanada baş həkimin müavini, təcrübəli kardioloqdur.*



**Əzimov Nahid Həmid oğlu** – *1982-ci ildə doğulub. 2005-də Azərbaycan Tibb Universitetini bitirərək, Oğuz rayon xəstəxanasında həkim lobarant vəzifəsində fəaliyyətə başlayıb. Hazırda bu vəzifədə çalışır.*



**Haşımov Rauf Yaqub oğlu –** *1957-də doğulub. 1984-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnistitutunu bitirərək, Bakı Elektromaşın zavodunda direktor müavini, Azərelektromaş EİB-də baş direktor müavini vəzifələrində çalışıb. Hazırda Rusiyanın Ruselprom şirkətinin Bakı nümayəndəliyinin direktoru işləyir. Ailəlidir, iki övladı var.*

**Hüseynov Etibar Hüseyn oğlu -** *1957-ci ildə doğulub. Moskva Hidroatom elektirik stansiyasının rəisidir.*



**Hümmətli Akif Əliəşrəf oğlu** – *1979-da doğulub. Azərbaycan Kənd Təsərrüfatı İnistitutunu (2000) bitirib, Oğuz rayon Meşə mühafizəsi və bərpası idarəsində, daha sonra isə, rayon Torpaq və Xəritəçəkmə şöbəsində çalışıb. Hazırda Azərsu ASC-nin Bakı Sukanal idarəsinin mühəndisidir. Ailəlidir, bir övladı var.*



**Hümmətli Qorxmaz Əliəşrəf oğlu** – *1968-ci ildə doğulub. Azərbaycan Tibb Universitetini bitirərək, 1994-dən Hərbi Hava Qüvvələrinin polikilinikasında cərrah kimi fəaliyyətə başlayıb. Hazırda Oğuz rayon xəstəxanasında cərrahiyyə şöbəsinin müdiri, təcrübəli cərrahdır. Ailəlidir, üç övladı var.*



**Hümmətli Müşfiq Əliəşrəf oğlu** – *1969- da doğulub. Türkiyə Hacədtəpə Unversitetinin tibb fakultəsini (2000) bitirərək, Ankaradakı "Bilgi" xəstəxanasında, daha sonra isə, Azərbaycandakı "Türk-Amerikan medikal çentr"də terapevt həkim işləyib. Hazırda "Güven klinik"də direktor müavini və terapevt həkim olaraq çalışır. Ailəlidir, iki övladı var.*



**İsayeva Məlahət Allahverdi qızı** – *1965-ci ildə doğulub. Bakı iki saylı Tibb Texnikumunu 1985-də fərqlənmə diplomu ilə bitirib. 1993-cü ildə isə Azərbaycan Tibb Universitetinin pediatriya fakultəsini bitirib. Əmək fəaliyyətinə Oğuz rayon xəstəxanasında pediatr kimi başlayıb. 1994-cü ildən*

*ailə vəziyyəti ilə əlaqədar Rusiyanın Yekaterinburq şəhərinə köçüb və orada 15 saylı xəstəxanada həkimlik fəaliyyətini davam etdirib. Hazırda Oğuz xəstəxanasında təcrübəli pediatr kimi uşaqların sağlamlığı keşiyində dayanır. Ailəlidir, iki övladı var.*



**Qazaliyev Asim Burhanəddin oğlu -** *1964-də doğulub Azərbaycan Politexnik İnistitutunu (1989) bitirib, Bakı Radioquraşdırma İB-də mühəndis kimi əmək fəaliyyətinə başlayıb. 1991-ci ildə Qarabağ döyüşlərində iştirak etmək üçün leytenant rütbəsində könüllü olaraq cəbhəyə yola düşüb. Komandiri olduğu artileriya divizionu Ağdam və Fizuli rayonlarının bir çox kəndlərinin düşməndən azad edilməsində iştirak edib. Dəfələrlə kontuziya alaraq, mayor rütbəsində geri dönüb. Ailəlidir, iki övladı var.*



**Qazaliyev Burhanəddin Nurəddin oğlu** – *1936-cı ildə doğulub. Gəncə Kənd Təsərrüfatı İnistitutunu 1958-də bitirərək, doğma kəndində kolxoz sədri vəzifəsində çalışmağa başlayıb. Daha sonra təhsilini aspiranturada davam etdirib və Kənd təsərrüfatı elimlər namizədi elmi dərəcəsi ilə Kənd Təsərrüfatı Nazirliyində müxtəlif məsul*

*vəzifələrdə çalışıb. 2005-ci ildə dünyasını dəyişib, dörd övladı var.*



**Qazalıyev Namiq Bürhanəddin oğlu –** *1967-ci ildə doğulub. Leninqrad Maliyyə İqtisad İnistitunu 1990-da bitirərək, Oğuz rayon vergilər şöbəsində bölmə rəisi kimi əmək fəaliyyətinə başlayıb. HazırdaVergilər Nazirliyinin 11 saylı regional idarəsində şöbə rəisidir. Ailəlidir, bir övladı var.*

**Qocayev Qəhrəman Cəlal oğlu –** *1958-də doğulub. Azərbaycan Kənd Təsərrüfatı İnistitutunu bitirərək, Vartaşen rayonunda sovxoz direktoru, Kənd Təsərrüfatı və Ərzaq İdarəsinin rəisi işləyib. Hazırda təqaüdçüdür. Ailəlidir, üç övladı var.*



**Qədirov Asim Aslan oğlu** – *1956-cı ildə doğulub. ADU-nun Geologiya fakultəsini 1981-də bitirərək, neft sənayesində müxtəlif vəzifələrdə çalışıb."Günəşli", "Çıraq", "Azəri" neft yatağının və "Şahdəniz" qaz yatağının açılmasına rəhbərlik edib. Daha sonra "Smith Evro-Aziya" beynəlxalq kompaniyasında qazma üzrə menecer işləyib. Hal-hazırda "Qlobal Enerji" şirkətində menecerdir.*

*Ailəlidir, üç övladı var.*

**Ləman Aləşrəf qızı** – *1971-ci ildə doğulub. BDU-nun jurnalistika fakultəsini 1996-da bitirərək, dövrü mətbuatda çalışıb. Hazırda ANS Media və Yayım şirkətində xəbərlər redaksiyasının əməkdaşıdır. Ailəlidir, iki övladı var.*



**Mahmudov Mülküm Fərrux oğlu** – *1958-ci ildə doğulub. ADU-nun hüquq fakultəsini bitirərək (1985), Şəki şəhər prokurorluğunda müstəntiq kimi fəaliyyətə başlayıb. Daha sonra Biləsuvar (86) və Ucar (91) rayonlarına prokuror köməkçisi təyin olunub. 1993-cü ildə Qəbələ rayon prokurorunun müavini, 1999-da Zaqatala prokurorluğunun baş müstəntiqi vəzifələrinə təyinat alıb. Hazırda Lənkəran rayon prokrorunun müavini vəzifəsində çalışır. Vətənpərvər ədliyyə müşaviridir. Dövlət başçısı onun xidmətlərini nəzərə alaraq,* ***"İgidliyə görə"*** *medalı ilə təltif etmişdir.*



*Milli-mənəvi dəyərlərimizə və tariximizə bağlı olan Mülküm müəllim, əlinizdəki kitabın ərsəyə gəlməsində çox böyük səy göstərmiş, müxtəlif arxivlərdən materiallar toplamışdır.*

*Ailəlidir, dörd övladı var. Həyat yoldaşı Zümrüd xanım rus dili müəlliməsidir. Böyük qızı Çiçək, Şimali Kipr*

*Girnə Amerikan Universitetinin magistiraturasında təhsil alır. İkinci qızı Çinarə Azərbaycan Pedoqoji Universitetinin magistiraturasında, digər qızı Qumru musiqi kollecində təhsil alır. Oğlu Rəşad isə İdman sahəsində uğurlar qazanıb. 2011-ci ildə cüdo üzrə rayon yarışmasında öz çəki dərəcəsində birinci yeri tutub.*

**Məmmədəliyev Ədil Bayraməli oğlu –** *1930-cu ildə doğulub. Uzun illər Əzizbəyov adına kolxozda qabaqcıl təsərrüfatçı olub. Orden və medallara layiq görülüb. Dövrünün nüfuzlu ağsaqqallarından olub. 2006-da dünyasını dəyişən Ədil kişinin yurdunda yeddi övladı qalıb.*



**Məhəmmədli Hicran Məhəmməd qızı –** *1971-də doğulub. Sumqayıt Dövlət Universitetini (1994) bitirərək, təhsil aldığı müəssisədə əmək fəaliyyətinə başlayıb, Texnika üzrə fəlsəfə doktorudur. Ailəlidir, bir övladı var.*



**Məmmədov Cəmaləddin Səlim oğlu** – *1930-da doğulub. Azərbaycan Kənd Təsərrüfatı İnistitutunu və Ali Partiya Məktəbini bitirib. Qəbələ rayon Xalq Nəzarəti Komitəsinin sədri vəzifəsində çalışıb. 1972-ci ildə 42 yaşında dünyasını dəyişib. Az ömür etməsinə baxmayaraq, bölgədə böyük nüfuza sahib olub. Üç övladı qalıb.*



**Məmmədov Tofiq Ədil oğlu** - *1958 də doğulub. İnşaat Mühəndisləri İnstitutunu (1985) bitirərək, Bakı Mühəndis Tikinti Trestində usta kimi fəaliyyətə başlayıb. Daha sonra həmin trestdə iş icraçısı və baş mühəndis vəzifələrinə qədər yüksəlib. Hazırda özünün yaratdığı tikinti firmasında çalışır. Neçə-neçə ustanın yetişməsində əməyi olub. Vətənpərvər iş adamı və xeyriyyəçidir. Əlinizdəki kitabın işıq üzü görməsi onun təşkilatçılığı və yaxından dəstəyi sayəsində baş tutmuşdur.*



**Məmmədov Kərim Cəmaləddin oğlu** – *1963-cü ildə doğulub. Azərbaycan Politexnik İnstitutunu (1989) bitirib. Nərimanov və Xətai rayonlarının İH – də təmir-tikinti idarəsinin rəisi vəzifələrində çalışıb. 2007- dən özünün təsis etdiyi* ***"İnşaat International Qroup"*** *şirkətinin prezidenti, vətənpərvər xeyriyyəçidir. Ailəlidir, iki övladı var.*



**Məmmədov Mübariz Əhməd oğlu** – *1961-ci ildə doğulub. Avtomobilin istismarı üzrə texnikum bitirib. Əmək fəaliyyətinə Mingəçevir DRES-də nəqliyyat dispetçeri kimi başlayıb. Hazırda Dövlət Avtomobil Nəqliyyatı Xidməti Mingəçevir şöbəsinin müfəttişidir.*



**Məmmədov Rza Bayraməli oğlu** *–1938-də doğulub. Tombovda təyyarəçilik məktəbini bitirərək, Binə hava limanında (1965) bort mexaniki kimi fəaliyyətə başlayıb. Təcrübəli təyyarəçi kimi xüsusi prezident ekipajının üzvü olub. Təqaüdə çıxana qədər 20873 uçuş saatı həyata keçirib. Hazırda Bakı Beynəlxalq aeroportunun təhlükəsizlik*

*bölməsində mühəndis-inispektor vəzifəsində çalışır. Eyni zamanda Milli Aviasiya Akademiyasında mühəndis-təlimatçıdır. Ailəlidir, üç övladı var.*



**Məmmədov Rəhim Cəmaləddin oğlu** – *1960-da doğulub. Azərbaycan Neft Akademiyasını (1982) bitirərək, Bakı Aviasiya İB-də iqtisadçı və sex rəisi vəzifələrində çalışıb. Hazırda Vergilər Nazirliyində Baş Dövlət Vergi müfəttişidir. Ailəlidir, iki övladı var.*



**Məmmədov Saqi Əhməd oğlu -** *1962-ci ildə doğulub. 1993-cü ildə* **Tver** *Dövlət Universitetinin hüquq fakultəsini bitirib. Əvvəlcə Bakı Kimya-Əczaçılıq zavodunun xarici iqtisadi əlaqələr şöbəsində hüquqşünas, daha sonra isə, vəkillər kollegiyasında vəkil kimi fəaliyyət göstərmişdir. 2000-2001-ci illərdə MSK-nın üzvü olub. Bundan sonra isə, Göyçay rayon Məhkəməsinin sədri vəzifəsində çalışıb. Hal-hazırda Apelyasiya Məhkəməsinin hakimidir. Ailəlidir, iki övladı var.*



**Məmmədəliyev Mustafa Fərzalı oğlu –** *1888-də doğulub. Kolxoz yaranandan qoyun fermasının çobanı olub. Zəhmətkeş olduğuna görə 1939-da "Lenin ordeni" ilə təltif olunub. Bu səbəbdən bölgədə "Orden Mustafa" təxəllüsü ilə tanınıb. Sonralar ferma müdiri işləyən Mustafa kişi 1967-də vəfat edib.*



**Məmmədov Camaləddin Zivər oğlu -** *1945-ci ildə doğulub. Azərbaycan Tibb İnstitutunu bitirərək, 1968-də leytenant rütbəsində Kutaisidə tibb xidmət rəisi kimi fəaliyyətə başlayıb. Daha sonra Şəmkir qarnizonunun tibb xidmət rəisi vəzifəsində çalışıb. 1972-75-ci illərdə Zaqafqaziya hərbi dairəsinin hərbi hava qüvvələrinin tibb şöbəsinin baş zabiti, daha sonra Macarıstanda Cənub quru qoşunlarının hərbi hava qüvvələrinin tibb şöbəsinin baş zabiti; Orta Asiya hərbi dairəsinin aviasiya diviziyasının tibb xidmətinin rəisi (Qazaxıstanda); eyni vaxtda SSRİ hərbi hava qüvvələrinin kosmonovtların seçim komissiyasının orta Asiya üzrə üzvü olub. Bundan sonra Polşada Şimal qurup qoşunlarının hərbi hava qüvvələrinin aviasiya diviziyasının tibb xidməti rəisi vəzifəsində çalışıb. 1992-2006-cı illərdə Azərbaycan Respubilkası hərbi hava qüvvələri və hava hücumundan müdafiə qoşunlarının tibb xidməti rəisi*

*vəzifəsində çalışıb. Hazırda Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Həkim Komissiyasının Baş həkim mütəxəssisidir.*

*1972-də SSRİ Aviasiya Kosmik Təbabət İnstitutunun Ali Aviasiya kosmik təbabəti üzrə Ali Akademik kursu (Moskvada); daha sonra SSRİ həkimləri təkmilləşdirmə institutunda hərbi toksikologiya və radiologiya üzrə Ali Akademik kursunu bitirib. Öz ixtisası üzrə respublikada yeganə mütəxəssisdir. Ailəlidir, üç övladı var.*

**Məmmədəliyev Rasim Məmmədəli oğlu -** *1952-ci ildə doğulub. Azərbaycan Xalq Təsərrüfatı İnistitutunu və Azərbaycan Dövlət Universitetinin hüquq fakultəsini bitirib. Uzun illər daxili işlər orqanlarında çalışıb. Şəki və Şamaxı rayonlarında polis rəisi vəzifəsinə qədər yüksəlib. Hal-hazırda ehtiyatda olan polis polkovnikidir. Ailəlidir, iki övladı var.*



**Məsimov Telman Sərkər oğlu** – *1944-cü ildə doğulub. Kənd Təsərrüfatı İnistitutunu (1967-də) fərqlənmə diplomu ilə bitirərək, Oğuz rayon 5 saylı tütünçülük sovxozunda aqronom işləmişdir. 1969-71-ci illərdə rayon komsomol komitəsinin ikinci katibi olmuşdur. Daha sonra ayrı-ayrı vaxtlarda doğma kəndində kolxoz sədri, rayon komsomol komitəsinin birinci katibi, 5 nömrəli tütünçülük sovxozunun direktoru, təbiəti mühafizə idarəsinin rəisi, kənd kimya birliyinin rəisi, XDS icraiyyə komitəsinin təşkilat*

*şöbəsinin müdiri, rayon kənd təsərrüfatı və ərzaq idarəsinin sədr müavini, Toxum Müfəttişliyinin rəisi kimi məsul vəzifələrdə çalışmışdır. 2006-cı ildə dünyasını dəyişib, üç övladı qalıb.*



**Mustafayev Cuma Alxas oğlu** - *1918-də doğulub. Şəki pedoqoji məktəbini və APİ-ni bitirib. 1938-ci ildən pedoqoji fəaliyyətlə məşğul olub. Müxtəlif vaxtlarda Vartaşen rayonunda və Bakı şəhərində bir neçə orta məktəbin direktoru işləyib. 2002-də dünyasını dəyişən Cuma müəllimin yolunu yeganə qızı, Sevil müəllimə davam etdirir.*



**Mustafayev Pərviz Mustafa oğlu** – *1980-ci ildə doğulub. Azərbaycan Ali hərbi təyyarəçilik məktəbini (2002) bitirib. Hazırda N saylı hərbi hissədə kapitan rütbəsində təyyarəçidir. Ailəlidir.*



**Mustafayev Soltan Alxas oğlu** - *1925-də doğulub. Yeddiillik ora məktəbi bitirib, rayon hərbi komissarlığında məsul vəzifədə çalışıb. Daha sonra Azərbaycan Xalq Təsərrüfatı İnistitutunu bitirərək, Bakı şəhərində ticarət sahəsində məsul vəzifələrdə çalışıb. Hərbi xidmətlərinə görə müxtəlif orden və medallarla təltif edilib. 1998-də vəfat edib, üç övladı qalıb.*



**Mustafa Rəvan Salam oğlu –** *1998 də doğulub. Baş Daşağıl orta məktəbinin səkkizinci sinfində oxuyur. Oğuz rayonunda istedadlı gənclərin baxış müsabiqəsində birinci yeri tutub. Respublika baxış müsabiqəsində isə Mədəniyyət Nazirliyinin diplomu ilə təltif olunub. İstedadlı müğənnidir.*

**Mustafayeva Gülnarə Mustafa qızı –** *texnika üzrə fəlsəfə doktoru, Azərbaycan Neft Akademiyasının müəllimısi.*

**Mustafayev Tahir Soltan oğlu –** *1958-də doğulub. Azərbaycan İncəsənət İnistitutunu (82) bitirərək, C.Cabbarlı adına kinostudiyada rejissor asistenti kimi fəaliyyətə başlayıb. Daha sonra müxtəlif vaxtlarda keçmiş Feoletov adına klubun direktoru, Sevil kinoteatırının müdiri, Dövlət*

*kino komitəsinin sədr müavini, Mədəniyyət və Turizm nazirliyinin baş mütəxəssisi vəzifələrində çalışıb. 2011-ci ildə dünyasını dəyişib, bir övladı qalıb.*

**Mustafazadə Ziyəddin Əsəd oğlu -** *1885-ildə doğulub. İlk təhsilini Baş Daşağılda hücrədə alıb. Daha sonra Zəyziddə mədrəsə bitirib. 1937-41-ci illərdə Şəkidə, sonra isə Yevlaxda yun idarəsinin müdiri olub. 1942-45-ci illərdə Vartaşen çörək müəssisəsinin (pekarnı) müdiri olub. 1945-ci ildə dünyasını dəyişib. Yurdunda səkkiz övladı qalıb.*



**Orucov Eldar Şirin oğlu** *- Şamaxı Astrofizika rəsədxanasında işləmiş fizika-riyaziyyat elimləri namizədi.*



**Ramazanov Azad Məmməd oğlu** *– 1957-ci ildə doğulub. Rabitə texnikumunu bitirərək, 1980-ci ildə Bakı zərgərlik zavodunda əmək fəaliyyətinə başlayıb. Hazırda* ***"Avesta"*** *şirkətlər qurupunun texnika üzrə baş direktorudur. Sərbəst güləş üzrə idman ustasıdır. Ailəlidir, iki övladı var.*



**Salamov Oktay Mustafa oğlu** - *1950-də doğulub. Azərbaycan Texniki Universitetinin Elektrotexnika fakültəsini bitirib. Fizika-riyaziyyat elmləri doktoru, dosentdir. Alternativ Energetika sahəsində Beynəlxalq Eko-Energetika Akademiyasının professorudur. AMEA Radiasiya Problemləri İnstitutunun "Bərpa olunan enerji növlərinin çevrilməsi laboratoriysında aparıcı elmi işçidir. 140 elmi işin müəllifidir. Azərbaycan Texniki Universitetinin «Radiosistemlər və Televizoya verilişləri» kafedrasının dosentidir. Ailəlidir, iki övladı* var.



**Səmədov Baba Səməd oğlu** – *1934-də doğulub. 11 yaşından kolxozda mexanizatorlara kömək etməyə başlayır. Zəhmətkeşliyinə görə başqalarından fərqlənən B. Səmədov 1972-ci ildə "Lenin" ordeni ilə təltif edilib. 1975-80-85-ci illərdə üç çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilib. Həmin illərdə həmçinin SSRİ KP MK-nın XXV, XXVI və XXVII qurultaylarının nümayəndəsi olub. 1978-ci ildə "Sosialist əməyi qəhrəmanı" adına layiq görülüb. 2003-cü ildən prezident təqaüdçüsüdür. 2011-ci ildə "Tərəqqi" medalı ilə təltif edilib. Ailəlidir, dörd övladı var.*



**Şamilov Babək Şakir oğlu** – *1971-ci ildə doğulub. 1994-də Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakultəsini fərqlənmə diplomu ilə bitirib. Bir neçə il təhsil aldığı elm ocağında müəllim işləyib. Hazırda istedadlı memar kimi onun layihəsi ilə Bakı şəhərində və dünyanın bir çox ölkələrində biri-birindən gözəl binalar tikilib və yaxud interyerləri bəzədilib. (Onun bəzi memarlıq nümunələrini bu kitabda təqdim edirik.) Vətənpərvər xeyriyyəçidir.. Ailəlidir, üç övladı var.*



**Şamilov Şakir Dadaş oğlu –** *1941-ci ildə doğulub. Azərbaycan Neft-Kimya İnstitutunu bitirərək, neft sənayesində müxtəlif vəzifələrdə çalışıb. Hazırda təqaüddədir, iki övladı var.*



**Şirinov Eldar Şəkər oğlu –** *1942-ci ildə doğulub. Azərbaycan Tibb İnistitutunun stomotologiya fakultəsini bitirərək, Oğuz rayonunda həkimlik fəaliyyətinə başlayıb. Hazırda təqaüddədir. Ailəlidir, dörd övladı var.*



**Şirinov Əmir Mikayıl oğlu –** *1947-də doğulub. ADU-nun fizika fakultəsini 1972-də bitirərək, doğulduğu kənddə pedoqoji fəaliyyətə başlayıb. Müxtəlif vaxtlarda Baş Daşağıl kənd məktəbində, Malıx və Calut kənd orta məktəblərində, həmçinin şəhər iki saylı orta məktəbində direktor vəzifəsində çalışıb. Hazırda pedoqoji fəaliyyətini davam etdirir. Ailəlidir, Ali təhsilli üç övladı var.*



**Şirinov Firdovsi Rəcəb oğlu –** *1966-cı ildə doğulub. 1987-də Semferopol Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək, Zaqafqaziya hərbi dairəsində və Privoljsk hərbi dairəsində (müxtəlif vaxtlarda) rota komandirinin siyasi məsələlər üzrə müavini vəzifəsində xidmət edib. Başqiriya AES-in*

*Tikintisində və Çernobl AES-də qəzanın aradan qaldırılmasında iştirak edib. Hazırda Oğuz rayon İH aparatında hüquq şöbəsinin müdiridir. Ailəlidir, iki övladı var.*



**Şirinov Rəcəb Şəkər oğlu –** *1935-ci ildə doğulub. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirərək, əmək fəaliyyətinə EA-nın Eroziya bölməsində başlayıb. Daha sonra Şəki regional kolxoz-sovxoz istehsalat idarəsində müfəttiş; Əzizbəyov kolxozunda, Bucaq toxumçuluq sovxozunda, beş saylı sovxozda ayrı-ayrı vaxtlarda baş aqronom vəzifəsində çalışıb. Hazırda təqaüddədir. Dörd övladı var.*



**Şirinova Gülnaz Mikayıl qızı –** *1945-ci ildə doğulub. Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakultəsini 1969-da bitirərək, Gəncə bir saylı doğum evində həkimlik fəaliyyətinə başlayıb. Hazırda həmin xəstəxanada fiziologiya şöbəsinin müdiridir. Ailəlidir, iki övladı var.*

**Vidadiyeva Fəxrimə İbrahimxəlil qızı –** *1951-ci ildə doğulub. Azərbaycan Tibb İnstitutunun müalicə profilaktika fakultəsini 1975-ci ildə bitirərək, Oğuz rayon xəstəxanasında həkimlik fəaliyyətinə başlayıb. Bu gün də bu şərəfli*

*sənəti davam etdirərək, insanların sağlamlığı keşiyində durur. Ailəlidir, üç övladı var.*



**Şükürov Arif Süleyman oğlu** - *1939-cu ildə doğulub. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu 1964-də bitirdikdən sonra, müəllim kimi fəaliyyətə başlayıb. Daha sonra Şəki şəhər Partiya Komitəsi Təbliğat və Təşviqat şöbəsinin müdiri, Təşkilat şöbəsinin müdiri vəzifələrinə yüksəlib. 1990-da Nizami rayon XDS İcraiyyə Komitəsi təşkilat şöbəsinin müdiri, 1992-də Nizami rayon İH-də şöbə müdiri vəzifələrinə təyin edilib. 1993-də Bakı şəhər İH Başçısının Aparatında Ümumi şöbənin müdiri, daha sonra isə Nazirlər Kabinetində Qaçqınlar və məcburi köçkünlərlə iş şöbəsinin referenti vəzifələrinə irəli çəkilib.1995-ci ildə isə, Kənd Təsərrüfat Nazirliyində Aparat rəhbəri vəzifəsinə təyinat alıb. Xidmətləri nəzərə alınaraq, "Şərəf nişanı" ordeni ilə təltif edilib.*



**Yusifov Şövkət Şaban oğlu** – *1938-də doğulub. Şamaxı Kənd Təsərrüfatı Texnikumunu və Azərbaycan Neft-Kimya İnistitutunu (1967) bitirib. Sumqayıt Kimya kombinatında sex rəisi vəzifəsinə qədər yüksəlib. 1979-da vəfat edib, üç övladı qalıb.*

# BAŞ DAŞAĞIL KƏNDİNDƏ KOLXOZ DÖVRÜ

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, bütün kəndlərdə olduğu kimi, Baş Daşağılda da kolxoz yaradıldı. Burada 1930-cu ildə əsası qoyulan ilk kolxoz **Əzizbəyov** adlandırıldı və 1997-ci ilə qədər fəaliyyət göstərdi. Fəaliyyəti dövründə kolxoz əsasən heyvandarlıq və taxılçılıqla məşğul olmuşdur. Bu müd dətdə təsərrüfata aşağıdakı şəxslər rəhbərlik etmişlər:



Mikayıl Əmirov
Süleyman Abbasov
Ədil Mustafayev
Əhmədov Əhməd
Kərimov Abdulla
Məsimov Telman
Umarov Əliheydər
Qazəliyev Burhanəddin
Haşımov Bahad
Mahmudov Əbülfət
Kərimov Bəybala

## BAŞ DAŞAĞIL İCRA NÜMAYƏNDƏLİYİ

1920-ci ildə Azərbaycanda sovetləşmə başlayanda Baş Daşağılda da kənd soveti yaradıldı. 1991-ci ildə isə, qurumun adı dəyişərək, İcra Hakimiyyətinin Baş Daşağıl kəndi üzrə nümayəndəliyi adlanmağa başlandı. Sovet dönəmindən bu günədək idarəyə aşağıdakı şəxslər rəhbərlik etmişlər:

Abbasov Süleyman
Əhmədov Əhməd
Aşurov Qafar
Qafarov Cəfər
Alməmmədov Rəsul
Mahmudov Rafiq
Xasməmmədov Əlhəddin
Əmrahov Rafiq
Məmmədov Tapdıq



## BAŞ DAŞAĞIL BƏLƏDİYYƏSİ

Azərbaycanın hər yerində olduğu kimi Baş Daşağılda da kolxoz quruluşu ləğv edilərək, əvəzində özünüidarə sistemi olan bələdiyyələr yaradıldı. Kənddə 1999-cu ildən fəaliyyətə başlayan bu quruma aşağıdakı şəxslər rəhbərlik etmişlər:

İsgəndərov İbrahimxəlil
Kərimov Bəybala
Şirinov Maarif



# XX ƏSRIN ILK ILLƏRINDƏ HƏCC ZIYARƏTINDƏ OLMUŞ BAŞ DAŞAĞIL SAKINLƏRI:

Hacı Əsəd Mustafa oğlu
Hacı Şirin Babayev
Hacı Daşdəmir Əfəndi
Hacı Qərib
Hacı Abbas
Hacı Novruz
Hacı Abbas
Hacı Mahmud
Hacı Ümmüleyla
Hacı Allahverdi
Hacı Qasım



## BAŞ DAŞAĞIL KƏNDİNİN REPRESSİYA QURBANLARI

1918-ci ildə zalım erməni daşnaklarının Azərbaycan müsəlmanlarına qarşı törətdikləri soyqırımın qarşısını almaq üçün qardaş Türk ordusu xalqımızın köməyinə gəldi. Onların içərisində olan Yarbay (polkovnik-leytenant) İsmayıl Haqqı Əfəndinin başçılıq etdiyi bölük Baş Daşağıl kəndini erməni vəhşiliyindən müdafiə edirdi. Onlar kənddə qısa müddət qalmasına baxmayaraq, xilaskar obrazları insanların yaddaşında əziz xatirə kimi qalmışdır. Erməni vandalizminə son qoyan Türk ordusu Azərbaycanı tərk etsə də, İsmayıl Haqqı Əfəndi Burada qalmışdır.

Azərbaycanda kommunist rejimi qurulduqdan sonra milli ruhlu ziyalılara, kadrlara və savadlı adamlara qarşı total repressiyalara başlanıldı. Millətimizin minlərlə vətənpərvər övladı güllələndi və yaxud uzaq sibir çöllərinə sürgün edilərək, qəsdən məhv edildi. Bu zülmə qarşı 1930-cu ilin aprelində Şəkidə üsyan başladı. Şəki üsyanı səkkiz rayonu əhatə edirdi. Baş Şabalıd kəndindən Molla Mustafa Əfəndinin rəhbərlik etdiyi bu üsyanda İsmayıl Haqqı Əfəndi də fəal iştirak edirdi. Çox keçmədi ki, rus ordusu bolgəyə hücum edib, yerli əhaliyə amansız divan tutdu. Onlar kəndləri top atəşinə tutur, üsyanda iştirak edənlərin ailələrini və özlərini tapıb güllələyirdilər. İsmayıl Haqqı Əfəndi də daxil olmaqla, bir qurup üsyançı Baş Göynük kəndində güllələnərək, cəsədləri orada da quyuya dolduruldu. Onların içərisində Daşağıl sakinləri Mustafayev Alxas Məhəmməd oğlu , Mahmudov Abdulxalıq Süleyman oğlu, Süleymanov

Məmmədəli Abdulxalıq oğlu da vardı.

Üsyanla əlaqədar bölgədə total repressiyalara başlandı. Repressiya dalğası Baş Daşağıl kəndindən də yan keçmədi. Rus əsgərləri kəndin kənarındakı Qonardağ yüksəkliyinə pulemyot qoyaraq, kəndi müntəzəm atəşə tutmuşlar. Bu vaxt bir çox dinc sakin həlak olmuşdur ki, onlardan biri də Kərimov Şaban idi. Onun Atası Salah kişi sonralar sovet hökumətinin verdiyi qocalığa görə pensiyadan imtina etmişdir ki, "oğlumu qətlə yetirən hökumətin yardımı mənə lazım deyil".

İllər keçsə də, Azərbaycanda, o cümlədən Baş Daşağılda repressiyalar səngimirdi. Kəndin nisbətən savadlı, imkanlı adamları, möminləri həbs edilərək, ya güllələndi, ya da gedər-gəlməzə göndərildi. Onlardan Həmidov Dərzi Molla Abdulhəlim oğlunun, onun əmisi Əhməd Əfəndinin, Hacı Səlim Əfəndinin, Molla Qazəlinin, Polad Molla Məhəmməd Əfəndinin, Hacıbala kişinin, Oruc kişinin və digər milli məfkurə uğrunda canlarından keçənlərin xatirəsini yad edərək, onların ruhlarına Allahdan rəhmət diləməyi özümə borc bildim.

(Qeyd edim ki, adları çəkilənlər sonradan bəraət alıblar.)

# 1941-1945-Cİ İL MÜHARİBƏSİNDƏ BAŞ DAŞAĞIL KƏNDİNDƏN İŞTİRAK ETMİŞ VETERANLARIN SİYAHISI

1.Alməmmədov Cəmil Qoca 1898
2.Abdullayev Abdulla Arıq
3.Ağayev Saleh Möylam 1919
4.Ağayev Mürsəl Abdulkərim1919
5.Abdulhəşimov Abdulmanaf Rəhim 1896
6.Əliyev Qafar Cəfər 1900
7.Əliyev Şah Novruz 1909
8.Əsgərov Məmməd İsmayıl 1914
9.Əliyev Baba Novruz 1900
10.Allahverdiyev Allahverdi Əli 1917
11.Adıgözəlov Sərkər Müslüm 1914
12.Abdulhəşimov Müslüm Həbibulla 1910
13.Əliyev Müslüm Səfər 1910
14.Əliyev Əli Paşa 1909
15.Əliyev Camal İsmayıl 1900
16.Allahverdiyev İsmayıl Hacı 1896
17.Əzizov Səməd Məmməd 1908
18.Əsədov Mabud İslam 1908
19.Alahmamedov Cumalı Xasməmməd 1905
20.Əliyev Mahmud Səfi 1906
21.Əzizov Azad Pirməmməd 1914
22.Allahyarov Allahyar Hümmət1902
23.Abdullayev Abdulla Kərim 1907
24.Əkbərov Əkbər Baxış 1919
25.Allahverdiyev Məmməd Musa 1908



26.Allməmməd Xəlil Hacı1909
27.Əskərov Ziyəddin Baxış 1910
28.Abdulxalıqov Hacı Davud 1908
29.Abdulkərimov Abdulla Məmməd 1909
30.Əzizov Hümbət Pirməmməd 1905
31.Allahverdiyev Yaqub Məmməd 1909
32.Əsədov Xəlil İsa 1909
33.Əzizov Həsən Məmməd 1914
34.Əsədov Əsəd İslam 1909
35.Əliyev Zərbalı Baxış 1912
36.Allahyarov Nəsrulla Nəsir 1915
37.Abdulkərimov Bəxtiyar Novruz 1911
38.Allahverdiyev Baba Musa 1909
39.Əsədov Sabir Abdulqədir 1909
40.Əliyev Həmid Sofu 1914
41.Əmirov Qədir Zakir 1909
42.Allahverdiyev Alxas Ramazan 1914

43.Abbasov Şövkət Məmməd1908
44.Ağaşirinov Veysəl Balakişi 1896
45.Allahverdiyev Əhmədalı Yusub 1912
46.Əmirov İsrafil Şirin 1910
47.Əzizov Rəhman Ağaşirin 1910
48.Abdullayev Balakişi Baba 1912
49.Abdullayev Yusub Dadaş 1898
50.Abdullayev Əhməd Məmməd1903
51.Əskərov Jamədin Barış1903
52.Ağamalıyev Səlim Məmməd 1878
53.Əzizov Məmməd Pirməmməd 1904
54.Allahquliyev Allahqulu Allahyar1915
55.Allahverdiyev Şaban Yusub 1902
56.Əhmədov Ramazan Mustafa 1897
57.Əliyev Ağali Barış 1904
58.Abdullayev Abdulla Tahir 1920
59.Abdullayev Seyfəddin Misir 1909
60.Bəkirov Nəbi Alxas 1909
61.Bədəlov Hümbət Adıgözəl1919
62.Babayev Abduləli İsmayıl 1905
63.Babayev Alxas Fərzalı 1897
64.Hüseynov Bayramalı Mustafa1995
65.Hacıyev Müslüm Abbas 1913
66.Həsənov Adil Abbas 1910
67.Hacıyev Hacıbaba Musa 1913
68.Hüseynov Məmmədyar Murad 1899
69.Həsənov Alxas Novruz
70.Qədimov Hidayət Məmmədsaleh1902
71.Cəfərov Cuma Cabbar 1890

72.Daşdəmirov Nurəddin Qazəli 1908
73.Cabbarov Saleh Əhməd1918
74.Cabbarov Mustafa Babaş 1910
75.İbrahimov Müsiüm Hacı 1900
76.İbrahimov Adil Yəhya 1919
77.İsmayılov Əsgər İbadulla 1909
78.İsmayılov Saad Məmməd 1905
79.İsgəndərov Məmmədəli Abdulla 1906
80.İsmayılov Əhmədiyyə Məmməd 1910
81.İsmayılov Abuzər 1919
82.İsmayılov Ramazan Mütəllif 1905
83.Qasımov Qədir Əsəd 1899
84.Qasımov Hidayət Məmmədsaleh1902
85.Kərimov Adil Kərim 1901
86.Qədirov Yasəf Kərim 1911
87.Qədirov Qədir Hüseyn 1908
88.Qafurov Əziz Əzim 1901
89.Qurbanov İlyas Şirin 1909
90.Qasımov Qasım Kərim 1905
91.Qasımov Mösüm Kərim 1915
92.Qurbanov Hacıbaba 1911
93.Qasımov Abdulqələm Xasay 1918
94.Qasımov Sahayad Məmmədsalam 1909
95.Qafarov İlyas Qafar 1912
96.Qasımov Ziyad Məmmədsalam 1909
97.Qafulov Soltan Məmməd 1901
98.Lətifov Ağanaib İsmət 1895
99.Lətifov Cuma Əhməd 1912
100.Məsimov Yusif Abduxaliq 1897

101.Məmmədov İsmayıl Salah 1897
102.Mikayılov Şaban Ramazan 1906
103.Məmmədov Məmməd Neymət 1907
104.Məmmədov Rəhim İskəndər1907
105.Məmmədov Rəsul Məmmədəli 1912
106.Mehtiyev Kərim Novruz 1912
107.Məmmədov Abdulqafar Yunus 1909
108.Məmmədov Cəlal Bəkir 1912
109.Məmmədov Əli Məmmədəli1902
110.Məmmədov Tacəddin Əsədulla1904
111.Məmmədov Hümbət Baxış 1915
112.Mahmudov Bahəddin Əli1905
113.Mikayılov Eyvaz Ramazan 1906
114.Məmmədov Qədir İskəndər 1905
115.Məmmədəliyev Abdurəhman Rəhmətulla 1912
116.Məmmədəliyev Səfər Fərzəli 1910
117.Mahmudov Beniamin Hümbət 1905
118.Mahmudov Müslüm Məhərrəm1911
119.Mustafayev İzzət Cumayət 1914
120.Məmmədəliyev Rəcəb Fərzalı 1907
121.Məmmədcanov Bayramalı Səməd 1909
122.Mirzəliyev Baba Abdurahman 1910
123.Mustafayev Şərif Salam 1912
124.Mustafayev Şövkət Cuma 1913
125.Məmmədov Süleyman Əhmədalı 1907
126.Mustafayev Mustafa Salman1912
127.Məmmədov Mahmud Məmməd1906
128.Mahmudov Dadaş Həmid 1918
129.Mustafayev Məmiş Murad 1899

130.Mahmudov İsrafil Əli 1909
131.Mirzəyev Mirzə Həmid 1909
132.Mustafayev İsmayıl Cabbar 1900
133.Mustafayev Cumalı Alxas 1918
134.Məsimov Üzeyir Abduxaliq 1909
135.Misirov Fizuli Baxış 1920
136.Mənəfov Məhərrəm Cəfər 1904
137.Nəsibov Müslüm Xəlil 1910
138.Nəsibov Ziyafət Məsim 1913
139.Nazimov Nazim Abdulsəməd 1910
140.Osmanov Şirəli Rəhim 1912
141.Ömərov Zabud Məmməd 1909
142.Ömərov Ömər İslam1904
143.Osmanov Əhməd Süleyman 1902
144.Rizvanov Eyvaz Ağa 1909
145.Rəhimov Rəhim Mustafa 1916
146.Rəhimov Şirin Oruc 1915
147.Ramazanov Dadaş Şamil 1909
148.Ramazanov Əlixan Qafar 1909
149.Rüstəmov Sabir İsmayıl 1900
150.Süleymanov Bayramalı Mahmud 1901
151.Səfərov Səfər Həbibulla1902
152.Süleymanov Baba Abdulxaliq 1902
153.Səlimov Rəhim Abdulrəfi 1901
154.Səlimov Fərhad Abdulrəfi 1908
155.Səmədov Əhmədiyyə Əşrəf 1906
156.Sərkərov Soqat Əziz 1908
157.Salehov İbrahim Məmməd 1905
158.Səmədov Söyün Abdulla 1916

159.Süleymanov Şükür Məmməd 1902
160.Umarov Camal Məmməd 1905
161.Feyzullayev İspəndiyar İmran 1914
162.Fərzəliyev Bayram Mustafa1916
163.Fətəliyev Valeh Lətif1920
164.Xəlilov Bayramalı kərim1907
165.Xəlilov Xəlil Məmməd 1911
166.Xəlilov Abdurəhim Əsədulla 1909
167.Çələbiyev Qədir Məmməd 1897
168.Çələbiyev Əhməd Mustafa 1907
169.Şakirov Mabud Mahmud 1909
170.Şirinov Həmid Novruz 1912
171.Eminov Həsənəli İsmayıl 1912
172.Yusubov Səyfəddin İbrahim 1905
173.Yusubov Saməddin İbrahim 1913
174.Yusubov Elməddin İbrahim 1914
175.Yusubov Yusub İsrəfil 1904
176.Daşdəmirov Məmməd Mustafa 1910
177.Daşdəmirov Abduləhəd Qazəli 1918
178.Qocayev Hacıbaba Musa 1913
179.Allahverdiyev Şaban Yusub 1902
180.Aslanov İsmayıl İbrahimxəlil 1916
181.Aslanov Cəbrayıl İbrahimxəlil 1923
182.Əliyev Abdulqədir Sofu1918
183.Abdulhəşimov Mövsüm Həbibulla1910
184.Əhmədov Məmməd Emin 1921
185.Həmzəyev Alkənd Novruz 1918
186.Daşdəmirov Nadir Qazəli 1922
187.Cabbarov Abdulqədir Həşim 1914

188.Kərimov Yusub Xəlil1923
189.Kərimov Yaqub Xəlil 1920
190.Mustafayev Şərif Salay 1912
191.Mahmudov Mahmud Salman 1923
192.Səfərov Abuzər 1908
193.Fərzəliyev Cəmaləddin Mustafa 1923
194.Əsədov Məcnun Məmməd 1922
195.Rəhimov Baxşalı Oruc 1922
196.Daşdəmirov Fərrux Vidadi 1919
197.Əsgərov Əhmədiyyə İsmayıl 1919
198.Cabbarov Saleh Əhməd 1918
199.Şirinov Məhərrəm Məhərrəm 1916
200.Səlimov Şaban Molla1913
201.Həmzəyev Həmzə Novruz 1926
202.İsmayılov Ələfsər Əhməd 1923
202.Yusubuv Yusub Rəhim 1922
203.Xasməmmədov Bayramalı Mahmud 1920
204.Mehtiyev Qələm Novruz1925
205.Mahmudov Həşim Həşim 1919
206.Əsgərov Məmmədiyyə İsmayıl1918
207.Bədəlov Hümmət Adıgözəl 1918
208.Fərzəliyev Bayram Mustafa1916
209.Əmiryusubov Saməddin İbrahim 1913
210.Cabbarov Saleh Əhməd 1918
211.Əzizov Mirzəfəddin Manaf 1922
212.Allahverdiyev Allahverdi Əli 1917
214.Məsimov Məsim Abdusalam 1910
215.Sərkərov Saad Əziz 1907
216.Mustafayev Adil Yusuf 1903

217.Əliyev Yarəli Baxış 1904
218.Şirinov Məhərrəm Məhərrəm1916
219.Səlimov Şaban Molla 1913
220.Həmzəyev Həmzə Novruz

***Bunlardan yalnız aşağıdakı şəxslər müharibədən salamat qayıtmışlar:***

Daşdəmirov İbrahimxəlil
Əsgərov Əhmədiyyə
Əsədov Məcnun
Əsgərov Məmmədiyyə
Əmiryusifov Zaməddin
Həmidov Əhməd
Həmzəyev Həmzə
Qədirov Aslan
Lillahov İsrayıl
Mehdiyev Qələm
Rəhimov Baxşəli
Rəhmətullayev Əsgər
Umarov Əliheydər

*Söz ardı: Böyük Vətən Müharibəsində həlak olmuş bütün Daşağıl sakinlərinin ruhlarına salam və salavat göndərib, Allahdan onlara rəhmət diləyirəm.*

*Müəllifdən: Bu siyahının hazırlanmasında göstərdiyi köməkliyə görə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Oğuz rayon bölməsinin əməkdaşı, hörmətli* ***Məmmədova Cəmilə Məhəmməd qızına*** *sayqı və təşəkkürümü bildirirəm.*

## DAŞAĞIL AĞSAQQALLARI

Əlinizdəki kitabı yazmaq üçün Baş Daşağılda olarkən, kəndin bir çox ağsaqqalları ilə örüşüb, onların maraqlı xatirələrini və dəyərli tövsiyələrini dinlədim. Həmin ağsaqqalların adlarını çəkməyi özümə borc bilirəm:

Səmədov Mehralı
Mahmudov Fərrux
Hüseynov Hüseyn
Əşəfov Vəliyəddin
Dadaşov Əliəşrəf
Səmədov Mədət
Abbasov Abbas
Abdullayev Musa
Alxasov Əlipaşa
Abdulxalıqov Qəyyum
Məmmədov Ərzuman
Məmmədov Zeynəddin
Qədirov Fərman
Məmmədov Abdurahman
Babayev Kazım
Əsədov Mayıl
Həmidov Əhməd
Məmmədov Zərbalı
Abdulxalıqov Ələddin
Əmrahov Kərəm
Əmrahov Mustafa
Məmmədəliyev Məmmədəli

Rəhimov Soltan
Fərzəliyev Zaman
Əliyev Paşa
Qurbanəliyev İmanəddin
Məmmədəliyev Tərxan
Məmmədov İmran
Əliyev Xanlar
Əliyev Ağalar
Bəkirov Tapdıq
Abbasov Nadir
Quliyev Xalid
Mahmudov Əbülfət
Mahmudov Şamil

*Bunlardan başqa, bu kənddə yaşayaraq, dünyasını dəyişmiş ağsaqqallar da olmuşlar ki, kənd əhli daim onları ehtiramla yad edirlər. Bu kitabda onları bir daha yad edək ki, ruhları şad olsun.*

Qara Aydın baba
Alxas baba
Dəmirçi Bayraməli baba
Dəllək Cəlal baba
Dəllək Məhəmməd baba
Dulusçu Saat baba
Zərgər Abdulxalıq baba
Dəyirmançı İsmayıl baba
Papaqçı Zaməddin baba
Dərzi Molla baba

Usta Məhyəddin baba
Qoyunçu Şəkər baba
Usta Mirzə baba
Usta Balakişi baba
Rəsul baba
Molla Salman baba
Misir baba
Hamamçı Məhərrəm baba
Qasım baba







# Daşağıl şairləri



***Allahverdi Gülövşəli***

## DAŞAĞIL

Görmək istərsən əgər həqiqi əfsanə, nağıl,
Bir nağıldır ki, durub göz qabağında Daşağıl!

Ulu çay, nəğməli çay, sanki abu-zəmzəmidir,
Daşağıl dağlar içində elə bil ki, gəmidir.
Uca dağlar qabarıb dalğa kimi sanki gəlir,
Təbiət çəkdiyini təsvir edəmməz bir ağıl,
Bir nağıldır ki, durub göz qabağında Daşağıl!

Toqquşurlar qayalıqlarda zərif bic təkələr,
Tutuşub qol-qola dostlar kimi zorba cökələr,
Açılar daş ürəklər, görsə açılanda səhər.
Ver nəyin varsa könül, sən də gözəlliklə açıl,
Bir nağıldır ki, durub göz qabağında Daşağıl!

Sanki xəyala dalıb saf çeşməli məğrur dağlar,
Dağ kimi dəyanətli, qürurlu insanları var.
Gah günəş gülümsəyər, gah da buludlar ağlar;
Bu gözəllik önündə qəmli bulud, durma, dağıl,
Bir nağıldır ki, durub göz qabağında Daşağıl!

Bağlıdır torpağa, əlbəttə, bütün rişələri,
Tanınır az-çox o da, var özünün xeyri-şəri,
Necə olmuş bu gözəl elə deyiblər köçəri,
Bu Vətən torpağına bağlıdı əfsanə, nağıl,
Bir nağıldır ki, durub göz qabağında Daşağıl!

***Oktay Bəyaz** (Salamov)*

**OĞUZ**

Qoynunda göz açmışam, sənə qurban canım Oğuz,
Olmasın bir an belə sənsiz keçən anım, Oğuz.
Göz açalı gördüyüm olubdu əhli-mərifət,
Mənim də damarımda o cür axır qanım, Oğuz.
Çox igidlər qoynunda ömr edibən Xak oldu,
Cəngavərlər yurdusan, ey ulu məkanım Oğuz.
Neçə-neçə gözəllər gül açdı laləzarında,
Vəfalı gözəllər yetirən gülüstanım Oğuz.
Nə müddətdir hüsnünə həsrət qlıbdı gözlərim,
Bir daha vəslin üçün qalmayıb gümanım, Oğuz.
Hər gecə arzularam səni röyyada görəm,
Heç olmasa röyada olginən mehmanım, Oğuz.
Sındırdılar qəlbimi, vəslinə gələ bilmədim,
Kor olur ağlamaqdan çeşmeyi-giryanım, Oğuz.
Bivəfa sanma məni, mən ki, vəfalı övladam,
Həsrətindən ərşə qalxır ahu-fəğanım, Oğuz.
Dağların min bir çiçəkli, düzlərin laləlidir,
Sən özün bir qönçəsən, ey gülü-reyhanım Oğuz.
Nəyə ki nail olmuşam, ünvanım sən olmusan,
Səninlə bağlı olub mənim adım-sanım, Oğuz.
Çəkirmi həsrətimi bir vaxt gəzdiyim dərələr
Kor dərəm, Arpa dərəm, Göbürüm, Uğanım, Oğuz.
Qartallı qayalarım, Ceyran, Cüyürlü çəmənim,
Qoç Yolum, Qızıl Qayam, Fiy Talam, Zindanım, Oğuz
Bir-birindən gözəldir bu yerlərin hər birisi,
Zirli Dərəm, Göy Bayırım, Ottar Çalanım Oğuz.

Buz kimi soyuq suların dup-duru, göz yaşı tək
Qoşa bulaq, Soltan bulağı, Cır Uğanım Oğuz.
Bir dağın ətəyində gör neçə gözəl dərən var
Uzun dərəm, Arçan dərəm, həm İt uçanım Oğuz.
Sarı torpaqdan ötrü yüz dəfə keçdiyim yollar,
Şiş qayam, Qızlar bulağım, Torpaqqazanım Oğuz,
İnciməyin Ulu Çaydan ayrı salıbsa sizi,
Dərəncim, Armux dağım, Kirəşyandıranım Oğuz.
Yay olunca sürülərin, naxırların oylağı
Əhməd Ağzım, Düzənim, Gürcüm, Çayqovuşanım Oğuz.
Yorulmaq bilmədən eyvandan seyr edirdim sizi,
İsrailim, Oğuz dərəm, Böyük Karvanım Oğuz.
Şır-Şır bulaq, Təhnə bulaq, yolunu sizdən alır,
Mal təpəm, Fındıqlı dərəm, Dəvəuçanım Oğuz.
Hərəniz bir tərəfdə bir seyri-seyrangahsınız,
Kənd başım, Axım, Qandağım, Kiçik Karvanım Oğuz
Heyf ki, yaşa doldum, sizləri gəzə bilmədim,
Qısır Dağım, Hərkim, Quçum, İnəkqoşanım Oğuz.
Adların çəkmədiyim yerlər məndən inciməsin,
Onların hər birinə qurban mənim canım, Oğuz.
Ömrümün bahar çağı qoynunda keçsə də, fəqət
İndi həsrətinlə solur fəsli-xəzanım , Oğuz.
Bəyazam, bu həsrətlə rəhmətə getsəm Bakıda,
Əhd eylərəm qoynunda qazılsın mədfanım, Oğuz.

*Mahitac Əsədova*

## OĞUZ YURDU

Vətən, Ana sözü sözlərin şahı,
Bu sözlər qəlbimdə boy atmışam mən.
İldırımdan işıq, dağlardan vüqar
Alan bu sözlərdən yaranmışam mən...

Meşəli, ormanlı, ay Oğuz yurdu,
Səndə tarixlərin nişanəsi var.
Hər qaya köksündə, dağ ətəyində,
Qaçaq Nəbilərin nişanəsi var.

Çox qədim tarixin sirridir UĞAN,
Orda insan izi, nal izi vardır.
Min bir əsr ötmüş, daşlaşmış zaman,
Yenə də sirləri hökmünə yardır.

Göylərə bərq vuran o ŞİŞ qayanı,
Allah öz mülkünə yaxın yaratmış.
Qızlar nazlandığı, Qızlar yaylağı,
Nazənin gözəldir, əbədi qalmış.

Qızılqaya sənin gündoğan yerin,
Xalqım bu dağının vurğunu olmuş.
Ondakı ucalıq, ondakı paklıq,
Elimin ruhuna, qanına hopmuş.

Isreyil, Qaralaq, nazənin Axı,
Sənin oylaq yerin, yaylaq yerindir.

Onun hər bir otu, hər bir çiçəyi,
Xalqımın dərdinə can məlhəmidir.

Bənişin suyudur xəstəyə dərman,
Içənin gözünə işıq gətirir.
Ürəyinə qüvvət, könlünə şadlıq,
Yaşamağı üçün ümid yetirir.

Yaylaqlardan gələn tütək səsində,
Incə gözəllərin ruhu şadlanır,
Koroğlu cüssəli mərd igidlərin
Yadı məhv etməyə qəlbi odlanır...

Alçaq Qalacığım, Kiçik karvanım,
Uşaqlıq məkanım, ruhi-rəvanım.
Görmüşəm, gəzmişəm həyatda canım
Bu gözəl məkanı verənə qurban.
Bu gözəlliyi görüb duyana qurban.

Məğrur ULU çayım  başlanğıcını
Göydələn dağların köksündən alır.
Ondan su içdiyi hər bir övladı,
Bu yurda sədaqət əbədi qalır.

Uzaqdan görünən Çənlibel yurdum,
Oğuz igidləri səndə boy atmış.
Daşağıl deyəndə köksü qabaran,
Həsrətini çəkən övladın varmış.

Müqəddəs dağların beşiyi Vətən,
Atam Oğuz yurdu, elim Daşağıl!
Sənə səcdə edir yanından ötən,
Mənim son məkanım, dilim Daşağıl!

Vətən, səndən mənim şikayətim yox,
Sən məni böyütdün, borcluyam sənə.
Adın çəkiləndə xəcalətim yox,
Çünki, öyünməyə dil verdin mənə.

Azərbaycan Vətənim, Oğuz yurdu elimdir,
Qarabağ məmləkətim, Daşağıl yurd yerimdir.
Hər biri Gülüstanda bitən ömür günümdür,
Bu məkanım Allahın əl çəkdiyi torpaqdır.
DÜNYA adlı varlığa sancılmış bir bayraqdır.

## SORMA QARDAŞIM

Həyat ağacında bir yarpaq oldum,
Böyüdüm, boy atdım, gənc yaşa doldum,
Kor bir məhəbbətin qurbanı oldum,
Gəl bunu sən məndən sorma, qardaşım.

Dünyada qəmimi pünhan saxladım,
Ipək tellərimə qara bağladım,
Üzümdən gülsəm də qəlbən ağladım,
Gəl pünhan dərdimi sorma, qardaşım.

Vurğunu olduğum yuvam boş qaldı,
Yerimi layiqsiz bir insan aldı,
O, məni yurdumdan didərgin saldı,
Sən bunu gəl məndən sorma, qardaşım.

Dünya qara kəmər vurdu belimə,
Dərdim selə dönüb yağdı içimə.
Abrım qandal olub  qaldı dilimə,
Bu dərdli dərdimə alış qardaşım,
Dərdimi bir daha sorma, qardaşım.

*Məlahət Allahverdiyeva*

## ANALI GÜNLƏRIM

Analı günlərin həsrətindəyəm,
Kaş səni bir dəfə görəm, ay Ana.
O ağ saçlarını öpüb, oxşayıb,
Darayıb, sığayıb, hörəm, ay ana!

Gözlərim gözünün həsrətindədir,
Yollara hey baxır, səni görməyir.
Yaşım çox olsa da körpə ürəyim
Mələr quzu kimi səni səsləyir.

Özüm bir anayam, ancaq anamın
Həzin laylasında gözüm qalıbdır.
Ürəyim doludur, sənə gizlicə
Çoxlu deyiləsi sözüm qalıbdır.

Sənin gözlərinlə bu gün baxıram
Bacı çöhrəsinə, qardaş üzünə.
Elə sənin kimi xeyli dayanıb,
Baxıram, baxıram ayaq izinə.

Birinin üzündə kədər, qəm görsəm,
Əhvalım dəyişər, pərt olaram mən.
Ana, darıxmışam, yuxuma gəl sən,
Yatmaram, eləcə məst olaram mən.

Danışıb, gülürük, ancaq bir anlıq
Xəyalım o sənli günlərə gedir.
Ana, yaşayırıq, biləsən, ancaq
Sənsiz bu ömrümüz pərişan keçir.

*Firuzə Abdullayeva*

## DAŞAĞILIN VƏSFİ

Bu yerlərdə gözəl bir dağ kəndi var,
Gözəl olur, bura gələndə bahar.
Burda yada düşür dədə ozanlar,
Səfalı bulaqlar Daşağıldadır,
Mehriban insanlar Daşağıldadır.

Ulu çay bu elin nəğməkarıdır,
Uğan  tarixlərin yadigarıdır.
Hansı gül çiçəkdən desən varıdır,
Ağbirçək analar Daşağıldadır,
Gülbuta xalçalar Daşağıldadır.

Çıxsan bar bəhrəli Armux dağına,
Yolunu sal Sarı Güney dağına,
Tamaşa et Göy Bayır yaylağına,
Yamyaşıl çəmənlər Daşağıldadır,
Ismətli sənəmlər Daşağıldadır.

Günəş qayaların öpər qaşını,
Bulud örtər Qısır dağın başını.
Ancaq dədə Ozan bilər yaşını,
Səfalı yaylaqlar Daşağıldadır,
Çiçəkli oylaqlar daşağıldadır.

Yayın cırcırında cənnət bağıdır,
Kəndin sinəsində Qonardağıdır,
Dərdlərə min şəfa Karvan bağıdır,
Əzgilli meşələr Daşağıldadır,
Gəzməli guşələr Daşağıldadır.

Gürcü dağı dağların ən ucası,
Zirvəsində qartallar qıy vurası,
Toy-bayramın nağarası, zurnası,
Cənnətin babası Daşağıldadır,
Bülbülün yuvası Daşağıldadır.

Uzun dərə - yaxasında bənövşə,
Maral  çiçəkləri taxılar döşə.
Güneyləri naz eyləyər Günəşə,
Sürülər, çobanlar Daşağıldadır,
Təkələr,  ceyranlar Daşağıldadır.

Gecələri Ay nuruna qərq edər,
Göydə durnalar da nizamla gedər.
Firuzə də  bu yerləri vəsf edər,
Gözəllik libası Daşağıldadır,
Gözəllər sonası Daşağıldadır.

***Müəllifdən:***

***Bu kitabın ərsəyə gəlməsində mənə maddi və mənəvi dəstək olmuş bütün vətənpərvər Daşağıl sakinlərinə, ələlxüsus kənddə olarkən evində qonaq qaldığım Kərimov Kamil (Çingiz) Qasım oğluna və onun həyat yoldaşı Sülhiyyə xanıma öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.***

# Dünya şöhrətli memar Babək Şamilovun əl işləri











## İstifadə olunmuş ədəbiyyat:

Nazim Tapdıqoğlu (Vəlişov) – "Zərdab Ensiklopediyası"

Allahverdi Gülövşəli – "Ömürdən bir çiçək"

Zərinə Cavadova - "Şimal-qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası"

Həbibulla Manaflı - "Şəki Üsyanı"

# Kitabın içindəkilər

**PAŞA YAQUB**

# BAŞ DAŞAĞIL ENSİKLOPEDİYASI


**Mətbəənin direktoru:** *Elman Qasımov*
**Dizayner:** *Mətanət Əliqızı*
**Korrektor:** *Türkan Yaqub*

Çapa imzalanmışdır: 21.05.2012
Formatı 60x84 1/16. Həcmi 8 ç.v.
Sifariş №254. Tiraj 200.

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: iş (012) 514-73-73,
mob. (050, 055) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru